**“Əmtəə nişanları və coğrafi göstəricilər haqqında ” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 13-cü bəndini rəhbər tutaraq **qərara alır:**

“Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikası Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, №8, maddə 485; 2004, №7, maddə 505; 2009, №5, maddə 296; 2010, №3, maddə 171; 2012, №7, maddə 645) aşağıdakı dəyişikliklər edilsin:

1. 9-cu maddə üzrə:

1.1. yeddinci hissənin birinci bəndi ləğv edilsin və 2-ci-6-cı bəndlər müvafiq olaraq 1-ci-5-ci bəndlər hesab edilsin;

1.2. on ikinci hissənin ikinci cümləsində “Müəyyən edilmiş haqq ödənilməklə” sözləri “İddiaçının vəsatəti əsasında” sözləri ilə əvəz edilsin.

2. 11-ci maddə üzrə:

2.1. ikinci hissəsində “müəyyənləşdirilmiş müəyyən edilmiş haqqı ödəyərək” sözləri çıxarılsın;

2.2. altıncı hissəsinin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

“Bu müddət iddiaçının vəsatəti əsasında 2 ay müddətinə uzadıla bilər.”.

3. 14-cü maddənin səkkizinci hissəsi aşağıdakı redaksiyada verilsin:

“Bu Qanunun 9-cu maddəsinə uyğun verilən iddia sənədinin ekspertizası iddiaçının vəsatəti əsasında 1 ay ərzində keçirilir. ”.

4. 17-ci maddənin dördüncü hissəsində “verə bilər” sözləri “verir” sözü ilə əvəz edilsin.

5. 28-ci maddə üzrə:

5.1. səkkizinci hissə aşağıdakı redaksiyada verilsin:

“Qeydə alınmış lisenziya müqaviləsində dəyişikliklər tərəflərin razılığı ilə edilir.”;

5.2. doqquzuncu hissədə “qanunvericilikdə müəyyənləşdirilmiş qaydada” sözləri “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada” sözləri ilə əvəz edilsin.

6. 29-cu maddənin ikinci və dördüncü hissələrində “etibarsız hesab edilə bilər” sözləri “etibarsız hesab edilir” sözləri ilə əvəz edilsin.

7. 31-ci maddənin ikinci hissəsində “qanunvericiliklə” sözü “Haqsız rəqabət haqqında” Azərbaycan Respublikası Qanunu ilə” sözləri ilə əvəz edilsin.

8. 33-cü maddənin birinci hissəsində “Azərbaycan Respublikasının qanunvericiliyində müəyyənləşdirilmiş” sözləri “ Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi və Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsi ilə müəyyən edilmiş qaydada ” sözləri ilə əvəz edilsin.

9. 35-ci maddə aşağıdakı redaksiyada verilsin:

“Əmtəə nişanının və coğrafi göstəricinin qeydə alınması, müvafiq şəhadətnamələrin verilməsi və onlarla bağlı digər hüquqi hərəkətlər üçün “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət rüsumu ödənilir.” .

10. 37-ci maddə aşağıdakı redaksiyada verilsin:

“Bu Qanunu pozan hüquqi, fiziki və vəzifəli şəxslər Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə və Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə uyğun məsuliyyət daşıyırlar.”.

11. Aşağıdakı məzmunda 35-1-ci maddə əlavə edilsin:

“35-1. Əmtəə nişanları və coğrafi göstəricilər ilə bağlı iddia sənədinin qəbulu və onların ekspertizasının təşkili

Əmtəə nişanları və coğrafi göstəricilər ilə bağlı iddia sənədinin qəbulunu (iddia sənədinin ilkin ekspertizası və ekspertizası daxil olmaqla), əmtəə nişanına dair ilkinliyin müəyyən edilməsini, iddia sənədinin materiallarının tamamlanmasına, dəqiqləşdirilməsinə və ona düzəliş edilməsinə və iddia sənədlərinin (o cümlədən ilkinlik üzrə sənədlərin) təqdim edilmə müddətinin uzadılmasına dair vəsatətlərə baxılmasını müvafiq icra hakimiyyəti orqanı tərəfindən yaradılmış ixtisaslaşmış hüquqi şəxs həyata keçirir.”.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 22 noyabr 2013-cü il
№ 823-IVQD

**Əmtəə nişanları və coğrafi göstəricilər haqqında**

AZƏRBAYCAN RESPUBLIKASININ QANUNU

Bu Qanun Azərbaycan Respublikasında əmtəə nişanlarının və coğrafi göstəricilərin qeydə al ınması, hüquqi mühafizəsi və istifadəsi ilə bağlı münasibətləri tənzimləyir.

I fəsil

**ÜMUMİ MÜDDƏALAR**

Maddə 1. **Əsas anlayışlar**

Bu Qanunda istifadə edilən anlayışlar aşağıdakı mənaları daşıyır:

**əmtəə nişanı** — sahibkarın əmtəələrini və ya xidmətlərini digər sahibkarın əmtəələrindən və ya xidmətlərindən fərqləndirən və qrafik təsvir edilən nişan və ya nişanların hər hansı bir uzlaşmasıdır (kombinasiyasıdır);

**coğrafi göstərici** - əmtəənin mənşəyinin dövlət, bölgə, ərazi, yaxud müəyyən ərazidəki yer ilə (coğrafi obyektlə) bağlılığını müəyyənləşdirən, eyni zamanda bu əmtəənin xüsusi keyfiyyətini, şöhrətini və başqa xassələrini əsasən coğrafi mənşə ilə əlaqədar əks etdirən işarədir;[1]

**kollektiv nişan** — ittifaqın, assosiasiyanın, hər hansı birliyin adına qeydə alınan nişan və ya nişanların kombinasiyasıdır;

**transliterasiya** — bir yazı sistemindəki hərflərin başqa yazı sisteminin hərfləri ilə verilməsidir.

Maddə 2. **Əmtəə nişanları və coğrafi göstəricilər haqqında Azərbaycan Respublikasının qanunvericiliyi**

Əmtəə nişanları və coğrafi göstəricilər haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, bu Qanundan, Azərbaycan Respublikasının digər qanunvericilik aktlarından və tərəfdar çıxdığı dövlətlərarası müqavilələrdən ibarətdir.

Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə bu Qanunda nəzərdə tutulmuş qaydalardan fərqli qaydalar müəyyənləşdirildikdə beynəlxalq müqavilələrin qaydaları tətbiq olunur.

Maddə 3. **Əmtəə nişanlarının və coğrafi göstəricilərin hüquqi mühafizəsi**

Azərbaycan Respublikasında müvafiq icra hakimiyyəti orqanı tərəfindən qeydə alınan əmtəə nişanlarının və coğrafi göstəricilərin hüquqi mühafizəsi bu Qanunla müəyyənləşdirilmiş qaydalara və nişanların beynəlxalq qeydiyyatına dair Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq sazişlərə və müqavilələrə uyğun olaraq həyata keçirilir.

Azərbaycan Respublikasında qeydə alınmayan, lakin Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə görə qüvvəsi olan əmtəə nişanı və coğrafi göstərici bu Qanuna uyğun olaraq mühafizə edilir.

Maddə 4. **Əmtəə nişanı kimi qeydə alınan nişanlar**

Əmtəə nişanı kimi aşağıdakı nişanlar qeydə alına bilər:

sözlər, şəxsi adlar, hərflər, rəqəmlər, təsviri elementlər, əmtəələrin forması və ya onların qablaşdırılması, rənglərin və yuxarıda göstərilənlərin hər hansı uzlaşması.

M a d d ə 5 . **Əmtəə nişanını qeydə almaqdan imtina edilməsinin mütləq əsasları**

Aşağıda göstərilən nişanların qeydə alınmasına yol verilmir:

a) bu Qanunun 1-ci maddəsində verilmiş "əmtəə nişanı" anlayışına və 4-cü maddəsinə uyğun gəlməyən nişanlar;

b) fərqlənmə qabiliyyətinə malik olmayan əmtəə nişanları, yəni əsas amillərlə fərqlənməyən nişanlar;

c) əmtəələrin və ya xidmətlərin növünü, keyfiyyətini, miqdarını, təyinatını, dəyərini, habelə onların istehsal olunduğu yeri və tarixi və digər xüsusiyyətlərini göstərən nişanlar;

ç) şərabların və spirtli içkilərin mənşəyinə aid olmayan, lakin onları eyniləşdirməklə tərkibində coğrafi göstərici saxlayan əmtəə nişanları;

d) əmtəənin mahiyyətini əks etdirən, ona mühüm dəyər verən və texniki nailiyyət üçün zəruri olan formalar;

e) ictimai qaydaya, mənəviyyata və əxlaqa zidd olan ifadələrdən, şəxsiyyətin nüfuzdan düşməsinə səbəb ola bilən elementlərdən, din və dövlət rəmzlərindən ibarət nişanlar;

ə) uzun illər Azərbaycan Respublikasının ticarət fəaliyyətində istifadə olunan, adi dildə çox işlənən nişan və ya göstəricidən ibarət əmtəə nişanları;

f) əmtəələrin və ya xidmətlərin xüsusiyyətləri, keyfiyyəti və ya coğrafi mənşəyi ilə əlaqədar istehlakçını yanılda bilən əmtəə nişanları;

g) sənaye mülkiyyətinin mühafizəsi üzrə Paris Konvensiyasının (bundan sonra— "Paris Konvensiyası" adlandırılacaqdır) 6ter maddəsinə uyğun olaraq qeydə alınması mümkün hesab edilməyən əmtəənişanları;

ğ) müvafiq icra hakimiyyəti orqanının razılığı olmadan təltiflər və başqa fərqlənmə nişanları.

~~Bu Qanun qüvvəyə minənədək yuxarıda göstərilən nişanlar qeydə alınmışdırsa, onların qeydiyyatı ləğv olunur.~~ [2]

İddia sənədinin verildiyi tarixədək bu maddənin 1-ci hissəsinin "b", "c", "d" bəndlərində göstərilən, lakin istifadəsi zamanı fərqləndirmə qabiliyyətinə malik olan əmtəə nişanının qeydə alınmasından imtina edilə bilməz və ya həmin əmtəə nişanı qeydə alınmışdırsa, qeydə alınma etibarsız sayıla bilməz.[3]

Bu maddənin 1-ci hissəsinin "g" bəndinə aid nişanları tərkibində saxlayan əmtəə nişanlarının istifadəsi qadağandır.[4]

M a d d ə 6 . **Əmtəə nişanını qeydə almaqdan imtina edilməsinin digər əsasları**

Aşağıdakılarla eyni olan və ya onlara qarışdırılacaq dərəcədə bənzər olan nişanlar əmtəə nişanı kimi qeydə alınmır:

a) Azərbaycan Respublikasında eyni və ya oxşar əmtəələrə və ya xidmətlərə aid başqa şəxsin adına qeydə əvvəl alınmış və ya qeydə alınmaq üçün iddia edilmiş əmtəə nişanları;

b) Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq sazişlərə uyğun olaraq Azərbaycan Respublikasında daha əvvəl mühafizə edilən əmtəə nişanları;

c) bu Qanunun 7-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikasında mühafizə edilən geniş tanınmış əmtəə nişanları;

ç) əmtəə nişanının ilkinlik tarixindən əvvəl Azərbaycan Respublikasında eyni və ya oxşar əmtəələr yaxud xidmətlər üzrə başqa şəxsin adına mühafizə olunan və ya geniş tanınmış kimi müəyyən edilən və ya istifadə zamanı istehlakçılar və istehsalçılar arasında fərqlənmə qabiliyyətinə malik olan firma adları (firma adlarının hissələri);

əmtəə nişanının ilkinlik tarixindən əvvəl Azərbaycan Respublikasında eyni və ya oxşar əmtəələr və ya xidmətlər üzrə başqa şəxs tərəfindən istifadə zamanı istehlakçılar və istehsalçılar arasında fərqlənmə qabiliyyətinə malik olan (tanınmış olan) əmtəə nişanları;[5]

d) mühafizəsiz element kimi əmtəə nişanına daxil edilmiş coğrafi göstəricilər istisna olmaqla coğrafi göstəricidən istifadə hüququ olan şəxsin adına qeydə alınan və Azərbaycan Respublikasında mühafizəedilən coğrafi göstəricilər;

e) qeydə alınmış sertifikat nişanları.

Aşağıdakıları təkrar edən nişanlar əmtəə nişanı və ya onun elementi kimi qeydə alınmır:

a) Azərbaycan Respublikasında başqa şəxslərə məxsus olan sənaye nümunələri;

b) müəlliflik hüququ sahibinin və ya onun varisinin razılığı olmadan Azərbaycan Respublikasında məşhur elm, ədəbiyyat, incəsənət əsərləri, onların personajları, onlardan sitatlar və ya onların fraqmentləri;

c) tanınmış şəxslərin və onların varislərinin razılığı olmadan həmin şəxslərin soyadları, adları, təxəllüsləri və bunlardan törəyən ifadələr.

Tanınmış şəxslərin özlərinin və varislərinin olmadığı halda həmin işarələr Azərbaycan Respublikasının tarixi və mədəni sərvətidirsə, onların qeydə alınması üçün müvafiq icra hakimiyyəti orqanının icazəsi olmalıdır.

Aşağıdakılar əmtəə nişanını qeydə almaqdan imtina üçün əsas ola bilməz:

a) əmtəə nişanını qeydə almaq üçün onun barəsində iddia sənədinin verildiyi tarixədək iddiaçının həmin əmtəə nişanından istifadə etməməsi;

b) əmtəənin və ya göstərilən xidmətin xarakterik cəhətləri;

c) mənşə ölkəsində mühafizə edilən nişandan yalnız elementlərlə fərqlənən, nişanın fərqləndirici xarakterini dəyişməyən və onların eyniliyini pozmayan əmtəə nişanları.

ç) mənşə ölkəsində əmtəə nişanına dair iddia sənədinin verilməməsi, onun qeydiyyata alınmaması və ya qeydiyyatı müddətinin uzadılmaması.[6]

M a d d ə 7. **Geniş tanınmış əmtəə nişanına qoyulan tələblər**

Geniş tanınmış əmtəə nişanları Paris Konvensiyasının $6^{bis}$ maddəsinin tələblərinə uyğun gələn nişanlardır.

Əmtəə nişanının geniş tanınması müəyyən edilərkən müvafiq icra hakimiyyəti orqanı aşağıdakıları nəzərə alır:

Əmtəə nişanı və ya işarə, eyni cinsli əmtəələrdə istifadə edilən və başqa şəxsin əmtəə nişanı ilə eyni və ya ona qarışdırılacaq dərəcədə oxşar olan nişanın ilkinlik tarixindən sonra məşhurlaşarsa, bu əmtəə nişanı və ya işarə geniş tanınmış hesab edilə bilməz.[7]

nişanın aid edildiyi əmtəələrin və xidmətlərin yayılma kanalları və kommersiya sahələri;

Azərbaycan Respublikasında və dünya bazarında əmtəə nişanından istifadə edilməklə əmtəənin keyfiyyəti barədə istehlakçıların məlumatı;

əmtəə nişanına xas olan, yaxud istifadə nəticəsində əldə edilmiş fərqləndirici xüsusiyyətlər;

nişanın istifadə ərazisi, müddəti, miqyası, həcmi, xüsusən nişanın əmtəə və ya xidmətlərə tətbiq edilməsi nəticəsində yarmarka və sərgilər əldə olunan məlumatlar, elanlar, reklamlar daxil olmaqla nişana üstünlük verən ərazilər, hərəkətlər (kampaniyalar);

Azərbaycan Respublikasının və başqa dövlətlərin ərazisində nişanın istifadə edildiyi əmtəənin və xidmətin bazarda tutduğu yer.

Azərbaycan Respublikasında qeydə alınan geniş tanınmış əmtəə nişanının başqa şəxs tərəfindən bütün növ əmtəələrdə və xidmətlərdə istifadə edilməsi onun sahibinə ziyan vurduqda bu hal geniştanınmış nişan sahibinin hüquqlarının pozulması hesab edilir.

M a d d ə 8. **Coğrafi göstərici kimi qeydə alınan nişanlar**

Bu Qanunla müəyyənləşdirilən tələblərə uyğun olan işarələr coğrafi göstərici kimi qeydiyyata alına bilər və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr çərçivəsində mühafizə edilə bilər.[8]

Adı coğrafi göstəricisi olan ölkənin, şəhərin, bölgənin və ya ərazinin coğrafi adi ilə yanaşı coğrafi göstəricinin qrafik və ya təsviri ifadəsi də mühafizə edilə bilər.[9]

Coğrafi ad saxta və yanıldıcı mənşəyi ifadə etmirsə, ondan əmtəənin və ya xidmətin xarakterik elementi kimi istifadə oluna bilər.

Coğrafi göstəricidən istifadə həmin ərazidə xidmət göstərən sahibkarlar üçün nəzərdə tutulur.

Coğrafi obyektin rəsmi adı, tarixi adı və ya onlardan törəmə adlar coğrafi göstərici kimi istifadə oluna bilər.

Əmtəənin mənşə yerinin adı, müəyyən coğrafi obyektdə istehsal olunan, coğrafi obyektin təbii xüsusiyyətlərini və ya digər amillərini, yaxud onlara xas olan ümumi xüsusiyyətləri özündə əks etdirən əmtəələrin işarələnməsi bir neçə şəxs tərəfindən birgə şəkildə qeydiyyata alına bilər. Bu şəxslərin hər biri əmtəənin mənşə yerinin adından istifadə hüququna malik olur. Qeydiyyata alınan əmtəənin mənşə yerinin adından istifadə hüququ, bu coğrafi obyektdə yerləşən eyni xüsusiyyətlərə malik məhsul istehsal edən istənilən hüquqi və ya fiziki şəxsə verilir.

Mənşə ölkəsində coğrafi göstərici mühafizə olunan tarixədək, tərkibində coğrafi göstərici olan əmtəə nişanının qeydiyyata alınması üçün iddia sənədi vicdanla verilibsə, qeydiyyatı aparılıbsa və ya əmtəə nişanına dair hüquq vicdanla istifadə yolu ilə əldə edilibsə, əmtəə nişanının qeydiyyatından imtina edilə, qeydiyyatı etibarsız hesab edilə və ya əmtəə nişanından istifadə hüququ məhdudlaşdırıla bilməz.

Həmcins əmtəələrə və ya xidmətlərə görə daha əvvəl ilkinliklə Azərbaycan Respublikasında başqa şəxslərin adına qorunan və ya qeydiyyatın aparılması üçün onlar tərəfindən iddia qaldırılan, habelə başqa şəxsin əmtəə nişanı kimi bu Qanunla müəyyən edilən qaydada geniş tanınmış olan nişanlar coğrafi göstərici hesab edilmir.

Coğrafi göstərici, mənşə ölkəsində mühafizə olunan müddətdə növ əlaməti anlayışı kimi hesab edilə bilməz.[10]

~~Bu maddədə müəyyənləşdirilmiş tələblər yerinə yetirilmədikdə nişan coğrafi göstəricisi kimi qeydə alınmır.~~ [11]

Coğrafi obyektin adı olan və ya bu adı özündə əks etdirən, lakin ~~Azərbaycan Respublikasında~~ coğrafi obyektə aid olmayan işarə coğrafi göstərici kimi qeydə alınmır.[12]

Mənşəyi göstərilən ərazidən olmayan əmtəələrlə bağlı coğrafi göstəricidən əmtəə nişanının tərkibində istifadə edilməsi istehlakçılarda həqiqi mənşə yeri barədə yanlışlıq yarada bilərsə, onun qeydiyyatından imtina olunur və ya qeydiyyatı ləğv edilir.[13]

Mənşə ölkəsində mühafizə olunmayan coğrafi göstərici Azərbaycan Respublikasında qeydə alınmır.

## II fəsil

## ƏMTƏƏ NİŞANLARININ VƏ COĞRAFİ GÖSTƏRİCİLƏRİN QEYDƏ ALINMASI

### Maddə 9. Əmtəə nişanlarının və coğrafi göstəricilərin qeydə alınması barədə iddia sənədinin verilməsi

Əmtəə nişanının və coğrafi göstəricinin qeydə alınması barədə iddia sənədini iddiaçı müvafiq icra hakimiyyəti orqanına verir.

İddiaçı müvafiq icra hakimiyyəti orqanına iddia sənədini aşağıdakı qaydada verə bilər:

bilavasitə;

Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanında qeydə alınmış patent müvəkkili vasitəsilə.

Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrdə başqa qaydalar nəzərdə tutulmayıbsa, Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyəti göstərənlər istisna olmaqla xarici hüquqi və fiziki şəxslər müvafiq icra hakimiyyəti orqanı ilə əmtəə nişanları və coğrafi göstəricilərlə bağlı hüquqi əhəmiyyətli işləri yalnız patent müvəkkilləri vasitəsilə aparırlar.[14]

İddia sənədi ərizədən və ona qoşulan zəruri sənədlərdən ibarət olmaqla bir əmtəə nişanına, bir coğrafi göstəriciyə aid olmalıdır.

Əmtəə nişanının qeydə alınmasına dair ərizədə aşağıdakılar göstərilməlidir:

iddiaçının adı, yerləşdiyi və ya yaşadığı yer, imzası (iddia sənədi patent müvəkkili vasitəsilə verildikdə, patent müvəkkilinin soyadı, adı, ünvanı və imzası);

iddia edilən nişanın şəkli və ya üçölçülü forması;

əmtəələrin, xidmətlərin, nişanların qeydiyyatı üçün əmtəələrin və ya xidmətlərin Nitsa təsnifatı üzrə qruplaşdırılmış siyahısı;[15]

əmtəə nişanının rəngi;

nişanın və ya onun müəyyən hissəsinin transliterasiyası və tərcüməsi.

Coğrafi göstəricinin qeydə alınmasına dair ərizədə aşağıdakılar göstərilməlidir:

qeydiyyat barəsində vəsatət;

iddiaçının adı, yerləşdiyi və ya yaşadığı yer, imzası (iddia sənədi patent müvəkkili vasitəsilə verildikdə, patent müvəkkilinin soyadı, adı, ünvanı və imzası);

iddia edilən coğrafi göstəricinin işarəsi;[16]

coğrafi göstəricinin aid ediləcəyi əmtəənin və ya xidmətin adı;

əmtəənin istehsal edildiyi və ya xidmətin göstərildiyi coğrafi obyektin hüdudları;

əmtəənin və ya xidmətin xüsusiyyətlərinin təsviri.[17]

Ərizəyə aşağıdakılar qoşulur:

~~müəyyən edilmiş haqqın ödənildiyini təsdiq edən sənəd~~;[18]

iddia sənədi patent müvəkkili vasitəsilə verildikdə onun səlahiyyətlərini təsdiq edən sənəd;

kollektiv nişanın nizamnaməsi, kollektiv nişanı öz adına qeydə almağa vəkil edilmiş subyektin adı, kollektiv nişandan istifadə hüququ olan subyektin bütün üzvlərinin siyahısı, bu nişanın aid ediləcəyi əmtəələrin və ya xidmətlərin siyahısı, onların vahid keyfiyyət və digər xüsusiyyətləri;[19]

zəruri halda əmtəə nişanının bu Qanunun 10-cu maddəsinə uyğun ilkinliyini təsdiq edən sənəd;

iddiaçının göstərilən coğrafi obyektdə olması, şöhrəti, xüsusiyyəti başlıca olaraq coğrafi mənşəyindən irəli gələn əmtəəni istehsal etməsi və ya xidməti göstərməsi barədə sənəd və müvafiq icra hakimiyyəti orqanının rəyi;

əmtəənin mənşə ölkəsində xarici iddiaçının iddia etdiyi coğrafi göstərici üzərində hüququnu təsdiq edən sənəd.[20]

Bu maddənin yeddinci hissəsində nəzərdə tutulan sənədlər müvafiq icra hakimiyyəti orqanına ərizənin verildiyi tarixdən 2 ay ərzində təqdim edilir.

Əmtəə nişanının və coğrafi göstəricinin qeydə alınmasına dair ərizə iddiaçının istəyinə uyğun olaraq özü və ya səlahiyyətli nümayəndəsi tərəfindən imzalanır.

Əmtəə nişanının və coğrafi göstəricisinin qeydə alınmasına dair ərizə Azərbaycan dilində verilir.

İddia sənədinə daxil olan digər sənədlər Azərbaycan dilində və ya başqa dillərdə verilə bilər. İddia sənədinin başqa dildə verilmiş materiallarının Azərbaycan dilinə tərcüməsi iddia sənədinin verildiyi gündən 2 ay ərzində təqdim olunmalıdır.

Bu maddənin yeddinci və on birinci hissələrində nəzərdə tutulan sənədlər müəyyənləşdirilmiş müddətdə müvafiq icra hakimiyyəti orqanına verilmədikdə və bu müddət başa çatanadək onun uzadılmasına dair əsaslandırılmış vəsatət təqdim edilmədikdə iddia sənədi verilməmiş sayılır. İddiaçının vəsatəti əsasında müəyyənləşdirilmiş müddət 2 aya qədər uzadılır.[21]

Bu maddənin beşinci və altıncı hissələrində müəyyənləşdirilmiş tələblərə uyğun gələn ərizənin müvafiq icra hakimiyyəti orqanına daxil olduğu tarix iddia sənədinin verildiyi tarix sayılır.

İddia sənədlərinin verilməsi qaydalarını müvafiq icra hakimiyyəti orqanı müəyyənləşdirir.

### M a d d ə 1 0 . Əmtəə nişanının ilkinliyi

Əmtəə nişanının ilkinliyi bu Qanunun 9-cu maddəsinə uyğun olaraq iddia sənədinin müvafiq icra hakimiyyəti orqanına daxil olduğu tarixdən müəyyənləşdirilir.

Əmtəə nişanının ilkinliyi Paris Konvensiyasının iştirakçısı olan ölkədə birinci iddia sənədinin verildiyi tarixdən də müəyyənləşdirilə bilər (Konvensiya ilkinliyi). Bu halda iddia sənədi həmin tarixdən 6 ay ərzində müvafiq icra hakimiyyəti orqanına daxil olmalıdır. İddia sənədinin verildiyi gün müddətə daxil edilmir. Əgər müddətin axırıncı günü istirahət, səsvermə, iş günü hesab edilməyən bayram günlərinə və ümumxalq hüzn gününə təsadüf edərsə və ya müvafiq icra hakimiyyəti orqanı həmin gün iddia sənədini qəbul edə bilmirsə, iddia sənədinin verilmə müddəti növbəti birinci iş gününə kimi uzadılır.[22]

Paris Konvensiyasının iştirakçısı olan dövlətlərdən birinin ərazisində təşkil edilmiş rəsmi beynəlxalq sərgilərin eksponatlarında yerləşdirilmiş əmtəə nişanının ilkinliyi sərgidə eksponatın açıq göstərildiyi tarixdən müəyyənləşdirilə bilər (sərgi ilkinliyi). Bu halda əmtəə nişanı barəsində iddia sənədi həmin tarixdən ən geci 6 ay ərzində müvafiq icra hakimiyyəti orqanına daxil olmalıdır.

Sərgi ilkinliyi Konvensiya ilkinliyinin müddətini uzatmır.

Konvensiya və ya sərgi ilkinliyi hüququndan istifadə etmək istəyən iddiaçı, bu tələbini iddia sənədini verərkən və ya iddia sənədinin müvafiq icra hakimiyyəti orqanına daxil olduğu tarixdən ən geci 3 ay ərzində bildirməlidir.

Əmtəə nişanının ilkinliyi Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr çərçivəsində beynəlxalq qeydiyyatın tarixi ilə də müəyyənləşdirilə bilər.[23]

### M a d d ə 1 1 . Əmtəə nişanı və coğrafi göstərici barəsində iddia sənədinin ekspertizası

Əmtəə nişanı və coğrafi göstərici barəsində iddia sənədinin ekspertizası bu Qanuna və müvafiq icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi qaydalara uyğun olaraq ilkin ekspertizadan və ekspertizadan ibarət olmaqla müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.

İddia sənədinin ekspertizasının aparıldığı dövrdə ona dair qərar qəbul edilənədək iddiaçı ~~müəyyənləşdirilmiş müəyyən edilmiş haqqı ödəyərək~~ öz təşəbbüsü ilə iddia sənədinin materiallarını tamamlaya, dəqiqləşdirə və ona düzəliş edə bilər.[24]

Əlavə materiallar qeydiyyata verilmiş nişanın mahiyyətini dəyişirsə və ya iddia sənədində göstərilən əmtəələrin və xidmətlərin siyahısına onlarla həmcins olmayan əmtəələri və ya xidmətləri daxil edirsə, həmin materiallar baxılmağa qəbul olunmur və iddiaçı tərəfindən müstəqil iddia sənədi kimi rəsmiləşdirilə bilər.

İddiaçı tərəfindən və ya onun xahişi ilə iddia sənədi sadalanan əmtəələrin və xidmətlərin bölünməsi yolu ilə bir neçə iddia sənədinə ayrıla bilər. Ayrılmış iddia sənədləri ilk iddia sənədinin verildiyi tarixi vəiddia edilmiş əmtəə nişanının ilkinliyini saxlayır.

Ekspertizanın aparıldığı dövrdə müvafiq icra hakimiyyəti orqanı iddiaçıdan ekspertiza üçün zəruri olan əlavə sənəd tələb edə bilər.

Ekspertizanın tələbinə əsasən əlavə sənəd tələbin alındığı tarixdən 2 ay ərzində təqdim edilməlidir. *Bu müddət iddiaçının vəsatəti əsasında 2 ay müddətinə uzadıla bilər.* İddiaçı göstərilən müddəti pozarsa və ya ekspertizanın tələbinə cavab verməzsə, iddia sənədi verilməmiş sayılır və bu barədə iddiaçıya bildiriş göndərilir.[25]

M a d d ə 1 2 . **İddia sənədinin geri götürülməsi**

Əmtəə nişanı və ya coğrafi göstərici barəsində iddia sənədi ona baxılmasının istənilən mərhələsində iddiaçının xahişi ilə geri götürülə bilər.

Kollektiv nişan barəsində iddia sənədi yalnız həmin nişandan istifadə hüququ olan birliyin bütün üzvlərinin razılığı ilə geri götürülə bilər.

M a d d ə 1 3 . **İlkin ekspertiza**

Əmtəə nişanı və ya coğrafi göstərici barəsində iddia sənədlərinin ilkin ekspertizası bu Qanunun 9-cu maddəsinə uyğun iddia sənədlərinin daxil olduğu tarixdən 1 ay müddətində aparılır.

Əmtəə nişanı və ya coğrafi göstərici barəsində iddia sənədlərinin ilkin ekspertizasının aparılması gedişində iddia sənədinin məzmunu, zəruri sənədlərin mövcudluğu, habelə müəyyənləşdirilmiş tələblərəuyğunluğu yoxlanılır. İlkin ekspertizanın nəticələrinə əsasən iddia sənədinin baxılmaq üçün qəbul və ya rədd edildiyi iddiaçıya bildirilir.

İddiaçı Konvensiya və ya sərgi ilkinliyini tələb etdikdə, lakin iddia sənədinin baxılmağa qəbul olunduğu anadək həmin tələbin hüquqiliyini təsdiqləyən zəruri sənədləri təqdim etmədiyi halda, əmtəə nişanıbarəsində iddia sənədinin daxil olduğu tarixdən onun ilkinliyi müəyyənləşdirilir və bu barədə iddiaçıya məlumat verilir.[26]

M a d d ə 1 4 . **Əmtəə nişanlarının və coğrafi göstəricilərin ekspertizası**

Əmtəə nişanının ekspertizası ilkin ekspertizanın başa çatmasından sonra 6 ay ərzində aparılır. İddia edilən nişanın ekspertizası gedişində bu Qanunun 1-ci maddəsində verilmiş “əmtəə nişanı” anlayışına, 4-cü, 5-ci və 6-cı maddələrində nəzərdə tutulmuş tələblərə uyğunluğu yoxlanılır və onun ilkinliyi müəyyənləşdirilir.

Coğrafi göstəricinin ekspertizası bu Qanunun 1-ci maddəsində verilmiş “coğrafi göstəricisi” anlayışına və 8-ci maddəsində göstərilən tələblərə uyğun 2 ay ərzində aparılır.[27]

Ekspertizaların nəticələrinə əsasən əmtəə nişanını və ya coğrafi göstəricinin qeydə alınmasına və ya qeydə almaqdan imtina edilməsinə dair əsaslandırılmış qərar qəbul edilir.

Ekspertizanın nəticəsi barədə qərar 10 gün müddətində iddiaçıya göndərilir. İddiaçı ekspertiza qərarında göstərilən sənədlərlə tanış ola bilər. İddiaçı iddia sənədi üzrə qərarı aldıqdan sonra 1 ay ərzindəhəmin sənədlərin surətini tələb edə bilər.

İddia edilən nişan üzrə ekspertizanın nəticəsi əsasında rədd qərarı qəbul etməzdən əvvəl bu barədə müvafiq bildiriş iddiaçıya göndərilir. İddiaçı ekspertizanın nəticəsi ilə razı olmadıqda razılaşmadıqda, bildiriş aldığı tarixdən 2 ay ərzində öz dəlillərini ekspertizanı aparan tərəfə təqdim edə bilər.[28]

Əmtəə nişanının qeydiyyat tarixinə qədər həmcins əmtəələr və ya xidmətlərlə eyni, yaxud onlarla qarışdırılacaq dərəcədə oxşar və başqa şəxsə aid olan əmtəə nişanına dair iddia sənədi, bu Qanunun 10-cu maddəsinə uyğun olaraq, daha əvvəl ilkinliklə müvafiq icra hakimiyyəti orqanına daxil olduğu halda, onun qeydiyyatına yenidən baxıla bilər.[29]

Qeydə alınması haqqında qərar qəbul edildikdə iddiaçı 4 ay ərzində dövlət rüsumunu ödədikdən sonra əmtəə nişanları və ya coğrafi göstəricilər qeydə alınır, onlara dair məlumat dərc edilir və şəhadətnamə verilir. İddiaçı müəyyən edilən müddət ərzində dövlət

rüsumunu ödəmədikdə, əlavə dövlət rüsumu ödəmək şərti ilə ona əlavə olaraq 4 ay möhlət verilir. Bu şərtlər yerinə yetirilmədiyi halda, ekspertizanın qərarı ləğv edilmiş sayılır və iddia sənədi geri çağırılmış hesab edilir.[30]

*Bu Qanunun 9-cu maddəsinə uyğun verilən iddia sənədinin ekspertizası iddiaçının vəsatəti əsasında 1 ay ərzində keçirilir.*[31]

M a d d ə 1 5 . **İddia sənədinə dair qərara etiraz**[32]

İddiaçı əmtəə nişanına və ya coğrafi göstəriciyə dair iddia sənədi barədə ekspertizanın qərarı ilə razı olmadıqda dövlət rüsumu ödəmək şərti ilə qərarı aldığı tarixdən 3 ay ərzində müvafiq icra hakimiyyəti orqanının Apellyasiya şurasına etiraz verə bilər.

Apellyasiya şurası etirza daxil olduğu tarixdən 3 ay ərzində baxır.[33]

Bu Qanunun 6-cı maddəsinin 1-ci hissəsinin “a” və “b” bəndlərinə uyğun olaraq oxşar əmtəə nişanının sahibinin razılıq məktubu və ya başqa razılaşma sənədi əmtəə nişanının ekspertizası mərhələsində, ekspertiza nəticəsində rədd qərarı qəbul edildikdə isə, Apellyasiya şurasında nəzərə alına bilər.[34]

İddiaçının və ya patent müvəkkilinin Apellyasiya şurasında iddiaya baxılmasında iştirak etmək və çıxarılmış qərarın materialları ilə tanış olmaq hüququ vardır.

İddiaçı Apellyasiya şurasının qərarını aldığı tarixdən 3 ay ərzində həmin qərardan məhkəmə qaydasında şikayət edə bilər.

M a d d ə 1 6 . **Ötürülmüş müddətin bərpası**

Bu Qanunun 15-ci maddəsinin birinci hissəsinə uyğun olaraq Apellyasiya şurasına etirazın verilməsi müddəti iddiaçı tərəfindən ötürüldükdə həmin müddət iddiaçının vəsatətinə əsasən və əlavə dövlət rüsumu ödəmək şərti ilə müvafiq icra hakimiyyəti orqanı tərəfindən əlavə olaraq 6 ay keçənədək bərpa edilə bilər.[35]

M a d d ə 1 7 . **Əmtəə nişanları və coğrafi göstəricilərin Dövlət reyestrində qeydə alma**

Ekspertizanın qərarına və Apellyasiya şurasının etirazla bağlı müsbət qərarına əsasən, habelə bu Qanunun 14-cü maddəsinin altıncı hissəsinə uyğun olaraq 1 ay ərzində müvafiq icra hakimiyyəti orqanıəmtəə nişanını və coğrafi göstəricini əmtəə nişanları və coğrafi göstəricilərin Dövlət reyestrində (bundan sonra — “reyestr” adlandırılacaq) qeydə alır.

Reyestrə əmtəə nişanının şəkli, ilkinliyi, sahibi haqqında məlumat, qeydə alındığı tarix, Nitsa təsnifatının sinifləri üzrə əmtəələrin və ya xidmətlərin qruplaşdırılmış siyahısı daxil edilir. Reyestrə əmtəənişanının qeydə alınması, qeydiyyatın qüvvədə olma müddətinin uzadılması, qeydiyyatın ləğvinə dair məlumat və sonrakı dəyişikliklər daxil edilir. Reyestrdə kollektiv nişan qeydə alınarkən ondan istifadəhüququ olanlar barəsində məlumat da əlavə olunur.

Reyestrə coğrafi göstəricinin şəkli, ondan istifadə hüququ alan şəxsə dair məlumat, əmtəənin xüsusi xassələrinin təsviri, qeydə alındığı tarix və onun qüvvədə olma müddətinin uzadılmasına aid məlumat və sonrakı dəyişikliklər daxil edilir.

Müvafiq icra hakimiyyəti orqanı reyestr məlumatlarından çıxarışı dövlət rüsumu ödənildikdən sonra *verir.*[36]

Dövlət reyestrlərinin aparılma qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

M a d d ə 1 8 . **Qeydiyyata dair məlumatların dərci**

Bu Qanunun 17-ci maddəsinə əsasən reyestrə daxil edilmiş məlumatlar müvafiq icra hakimiyyəti orqanının rəsmi bülletenində dərc edilir.

Qeydə alınmış kollektiv nişana dair məlumatın dərci zamanı əlavə olaraq nişanın aid edildiyi əmtəənin və ya xidmətin keyfiyyəti və digər xüsusiyyətləri barədə kollektiv nişanın nizamnaməsindən çıxarışverilir.[37]

M a d d ə 1 9 . **Əmtəə nişanı və coğrafi göstərici haqqında şəhadətnamə**

Müvafiq icra hakimiyyəti orqanı qeydə alınmış əmtəə nişanına və ya coğrafi göstəriciyə dair Azərbaycan Respublikası ərazisində qüvvədə olan qeydiyyat şəhadətnaməsi verir.

Əmtəə nişanına dair şəhadətnamə iddia edilmiş nişanın əmtəə nişanı kimi qeydə alınması faktını, onun ilkinliyini, əmtəələrə və göstərilən xidmətlərə aid nişan sahibinin müstəsna hüququnu təsdiq edir vəqeydə alınmış nişanın təsvirini özündə əks etdirir. Kollektiv nişana dair şəhadətnaməyə nişandan istifadə hüququ olanlar (birliyin üzvləri) barəsində məlumatlar da daxil edilir.

Coğrafi göstəricidən istifadə hüququna dair şəhadətnamə coğrafi göstərici kimi iddia edilmiş nişanın qeydə alınması faktını və şəhadətnamə sahibinin göstərilən əmtəə və ya xidmətdən istifadə hüququnu təsdiq edir.

Coğrafi göstərici barədə şəhadətnamə, qeydə alınmış coğrafi göstəricidən istifadəyə müstəsna hüquq vermir. Şəhadətnamə onun sahibinə həmin göstəricidən qanunsuz istifadəni qadağan etməyə dair tələb irəli sürmək hüququ verir.

Əmtəə nişanı və coğrafi göstərici barədə şəhadətnamə reyestrdə qeydə alındığı tarixdən 1 ay müddətində müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilir.

Əmtəə nişanı və coğrafi göstərici haqqında şəhadətnamənin forması müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Maddə 20. **Geniş tanınmış əmtəə nişanlarına hüquqi mühafizənin verilməsi**

Əmtəə nişanının geniş tanınmasına dair ərizə bir əmtəə nişanına aid edilir və dövlət rüsumunun ödənildiyini təsdiqləyən sənədlə birlikdə müvafiq icra hakimiyyəti orqanının Apellyasiyaşurasına təqdim olunur.

Əmtəə nişanının geniş tanınmasına, ona hüquqi mühafizə verilməsinə dair qərar bu Qanunun 7-ci maddəsinin tələbləri nəzərə alınmaqla müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş "Azərbaycan Respublikasında əmtəə nişanlarının geniş tanınması Qaydaları"na uyğun olaraq qəbul edilir.

Əmtəə nişanının geniş tanınmasına dair qərar bir ay müddətində "Geniş tanınmış əmtəə nişanlarının Dövlət reyestri"ndə qeydiyyata alınır, geniş tanınmış əmtəə nişanına dair şəhadətnamə verilir və bu barədə məlumat təxirə salınmadan rəsmi bülletendə dərc edilir və digər informasiya vasitələrində yayımlanır.

Geniş tanınmış əmtəə nişanının hüquqi mühafizəsinə məhdudiyyət qoyulmur.

Apellyasiya şurasının qərarından onun alındığı gündən 3 ay müddətində məhkəmə qaydasında şikayət verilə bilər.[38]

M a d d ə 2 1 . **Əmtəə nişanlarının və coğrafi göstəricilərin qeydiyyatının qüvvədə olma müddəti**

Əmtəə nişanının ~~və coğrafi göstəricinin~~ qeydiyyatı iddia sənədinin müvafiq icra hakimiyyəti orqanına verildiyi tarixdən 10 il müddətində qüvvədə olur. Bu müddət nişan sahibinin ərizəsinə əsasən dövlət rüsumu ödənilməklə məhdudiyyət qoyulmadan hər dəfə 10 il müddətinə uzadıla bilər.[39]

Qeydiyyatın qüvvədə olma müddəti qurtardıqdan sonra onun uzadılması üçün əmtəə nişanının sahibinə ~~və coğrafi göstərici barədə şəhadətnamənin sahibinə~~ əlavə dövlət rüsumu ödəmək şərti ilə 6 ay möhlət verilir.[40]

Qeydiyyat müddətinin uzadılmasına dair məlumat reyestrə və şəhadətnaməyə daxil edilir və rəsmi bülletendə dərc olunur.

Coğrafi göstərici coğrafi obyektin şərtlərinə uyğun olan xüsusi keyfiyyəti və ya əsas xassələrini özündə saxlamaqla, əmtəənin istehsalı müddətində mühafizə olunur.

Coğrafi göstəricinin istifadəsinə dair şəhadətnamə, iddia sənədinin müvafiq icra hakimiyyəti orqanına daxil olduğu tarixdən 10 il qüvvədə olur. Şəhadətnamənin qüvvədə olma müddəti, onun qüvvədə olma müddətinin axırıncı ilində sahibinin ərizəsi əsasında dövlət rüsumu ödənilməklə daha 10 il müddətinə uzadıla bilər. Şəhadətnamənin qüvvədə olma müddətinin uzadılmasına məhdudiyyət qoyulmur.[41]

M a d d ə 2 2 . **Reyestrdə və şəhadətnamədə dəyişikliklər edilməsi**

Əmtəə nişanının, kollektiv nişanın və coğrafi göstəricinin qeydiyyatına dair şəhadətnamənin sahibi qeydiyyatla bağlı məlumatlardakı dəyişikliklər barədə müvafiq icra hakimiyyəti orqanına məlumat verməlidir.

Dəyişikliklər reyestrə və şəhadətnaməyə dövlət rüsumu ödənilməklə daxil edilir.

M a d d ə 2 3 . **Təkrar qeydiyyatın şərtləri**

Kollektiv nişan qeydiyyat müddətinin bitdiyi tarixdən 3 il ərzində nişanın əvvəlki sahibi və ya onun hüquq varisi istisna olmaqla başqa şəxsin adına yenidən qeydə alına bilməz. Bu qayda kollektiv nişanın sahibi qeydiyyatın qüvvədə olma müddəti bitənədək nişandan imtina etdikdə də tətbiq olunur.

M a d d ə 2 4 . **Əmtəə nişanlarının və coğrafi göstəricilərin xarici dövlətlərdə qeydə alınması**

Azərbaycan Respublikasının hüquqi və ya fiziki şəxslərinin müəyyənləşdirilmiş qaydada əmtəə nişanını və coğrafi göstəricini xarici dövlətlərdə qeydə aldırmaq və ya onun beynəlxalq qeydiyyatını həyata keçirmək hüququ vardır.

Əmtəə nişanının beynəlxalq qeydiyyatına dair iddia sənədi müvafiq icra hakimiyyəti orqanı vasitəsilə verilir.

Coğrafi göstəricinin xarici dövlətlərdə qeydiyyatına dair iddia sənədi coğrafi göstərici Azərbaycan Respublikasında qeydə alındıqdan sonra verilir.

## I I I f ə s i l

## ƏMTƏƏ NİŞANLARINDAN VƏ COĞRAFİ GÖSTƏRİCİLƏRDƏN İSTİFADƏ

M a d d ə 2 5 . **Əmtəə nişanı üzərində müstəsna hüquq**

Əmtəə nişanının qüvvədə olduğu müddətdə nişan sahibinin Azərbaycan Respublikasının ərazisində onun barəsində sərəncam verməyə və ondan istifadə etməyə müstəsna hüququ vardır.

Qeydiyyata alınmış əmtəə nişanının sahibi razılığı olmadan ona məxsus əmtəə nişanının əhatə etdiyi əmtəə və ya xidmətlərlə eyni, yaxud onlara oxşar əmtəə və ya xidmətlər üçün eyni və ya oxşar əmtəə nişanından (işarədən) üçüncü şəxsin ticarətdə istifadə etməsinin qarşısını almaqda müstəsna hüquqa malikdir (əgər belə istifadə nəticəsində əmtəə və ya xidmətlərin qarışdırılma ehtimalı yaranırsa). Eyni işarə eyni əmtəə və ya xidmətlərdə istifadə olunduqda qarışdırma ehtimalı yaranmış hesab edilir.

Əmtəə nişanı üzərində hüquqa malik şəxsin özü tərəfindən və ya onun razılığı əsasında ona məxsus əmtəə nişanı ilə Azərbaycan Respublikasında ticarət dövriyyəsinə buraxılan əmtəələrlə

bağlı başqa şəxslərin həmin əmtəə nişanından istifadə etməsinə qadağa qoymaq hüququ yoxdur.[42]

Əmtəə nişanının sahibi "Sənaye mülkiyyətinin mühafizəsi üzrə Paris Konvensiyası"nın iştirakçısı olan ölkələrin birində həmin Konvensiyanın 6 septies maddəsinin tələblərinə uyğun olaraq Azərbaycan Respublikasının ərazisində öz nümayəndəsinə və ya agentinə onun istifadəsinə icazə vermədikdə, əmtəə nişanının istifadəsinin qarşısını almaq hüququna malikdir.[43]

Geniş tanınmış əmtəə nişanının sahibi onun nişanı barədə yanlış təsəvvür yarada bilən reproduksiyadan, oxşatmadan, transliterasiyadan və tərcümə olunmuş sözdən ibarət olan əmtəə nişanının və ona aid olan əmtəələrin və xidmətlərin, geniş tanınmış əmtəə nişanına aid olan əmtəələrlə və xidmətlərlə eyni və ya oxşar olduğu, qeydə alınmış əmtəə nişanının sahibi isə əmtəələrlə və xidmətlərlə eyni və ya oxşar olmadığı təqdirdə də yanlış təsəvvür yarada bilən nişanın qadağan olunmasını tələb edə bilər.[44]

Müstəsna hüquq əmtəə nişanının müstəqil əmtəə nişanı kimi qeydə alına bilinməyən elementlərinə şamil edilmir.

M a d d ə 2 6 . **Əmtəə nişanlarından və coğrafi göstəricilərdən istifadə**

Əmtəə nişanının və coğrafi göstəricinin, bir qayda olaraq, onların aid edildiyi əmtəələrdə, əmtəə qablarında və göstərilən xidmətlərdə tətbiqi onlardan istifadə sayılır. Onların reklamlarda, mətbu nəşrlərdə, lövhələrdə, Azərbaycan Respublikasında keçirilən sərgilərin və yarmarkaların eksponatlarında və əmtəələrin bazara çıxarılması ilə bağlı digər sənədlərdə tətbiqi də istifadə sayılır.

Yuxarıda sadalan hallarda istifadə məqsədilə əmtəənin istehsalı, anbara yığılması, bazara çıxarılması, idxalı, ixracı da nişandan istifadə sayılır.

Əmtəənin satış üçün təklif olunması, satışı və ya xidmətin göstərilməsi qeydə alınmış nişanlardan istifadəni təsdiq edir.

Əmtəə nişanından istifadənin onun sahibi və ya bu Qanunun 28-ci maddəsinə uyğun olaraq lisenziya müqaviləsi əsasında istifadə hüququ olan şəxs tərəfindən həyata keçirilməsi əmtəə nişanından istifadə sayılır.[45]

Əmtəə istehsalçısının və ya xidmət göstərənin əmtəə nişanı ilə yanaşı olaraq, aralarındakı müqaviləyə uyğun vasitəçilik fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslər özlərinə məxsus əmtəə nişanından da istifadə edə bilərlər.[46]

Kollektiv nişanın sahibləri kollektiv nişanla yanaşı əmtəə və ya xidmətlərə dair özlərinin əmtəə nişanından da istifadə edə bilərlər.

Eyni coğrafi göstəricidən istifadə edildikdə, istehlakçını yanıldan halların baş verməməsi üçün nişanlar təsviri elementlər və əsl coğrafi mənşəni aydın formada göstərən işarələrlə müşayiət olunmalıdır.

Coğrafi göstəricinin birinci qeydiyyat tarixinə qədər eyni və ya ona oxşar olan coğrafi göstəricidən vicdanla istifadə edən şəxs istifadə hüququnu özündə saxlayır.

Əmtəənin və ya göstərilən xidmətin əsas xüsusiyyətləri, o cümlədən əmtəənin hazırlanması və ya xidmətin göstərilməsi üçün ərazinin sərhədlərinin müəyyən edilməsinə nəzarət, əmtəənin və ya göstərilən xidmətin xüsusi xassələrə malik olması barədə qərar verən və əmtəə nişanının (coğrafi göstəricinin) qeydiyyatını aparan müvafiq icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilir.[47]

M a d d ə 2 7 . **Xəbərdarlıq işarəsi**

Əmtəə nişanına və ya coğrafi göstəriciyə dair şəhadətnamənin sahibi əmtəə nişanının və ya coğrafi göstəricinin yanında onların Azərbaycan Respublikasında qeydiyyatda olmasını bildirən ® işarəsi qoya bilər. [48]

Hüququn tanınması ilə bağlı əmtəə nişanının və ya coğrafi göstəricinin qeydiyyatı üçün əmtəədə hər hansı işarənin və ya göstəricinin yerləşdirilməsi tələb olunmur.[49]

M a d d ə  2 8 . **Əmtəə nişanına dair hüquqların verilməsi**

Əmtəə nişanının sahibi əmtəə nişanından istifadə hüququnu lisenziya müqaviləsi, əmtəə nişanına dair hüququ isə müqavilə əsasında həmin nişanın aid edildiyi əmtəələrin və xidmətlərin hamısı və ya bir hissəsi barədə başqa şəxsə verə bilər. Bu müqavilələr dövlət rüsumu ödənilmək şərti ilə müvafiq icra hakimiyyəti orqanında qeydə alınır və onların barəsində məlumatlar rəsmi bülletendə dərc olunduqdan sonra başqa şəxslərin hüquqa zidd hərəkətlərinə tətbiq olunur.

Əmtəə nişanına dair hüququn verilməsi əmtəə nişanının qeydə alınması üçün təqdim olunan iddia sənədinə də aid edilə bilər. Bu halda əmtəə nişanının yeni sahibinin hüququ iddia sənədinin verildiyi gündən qüvvədə olur. Əmtəə nişanına dair hüququn verilməsi əmtəə, xidmət və istehsalçı barədə istehlakçıda yanlış təsəvvür yaratmamalıdır.

Hər hansı ittifaqın, assosiasiyanın, birliyin adına kollektiv nişan qeydə alına bilər və bu nişana, eləcə də ondan istifadəyə dair hüquq başqa şəxsə onların bütün üzvlərinin razılığı ilə verilə bilər.

Lisenziya müqaviləsi əmtəə nişanı sahibinin (lisenziarın) nişandan istifadə hüququnun başqa şəxsə (lisenziata) verilməsi barədə sənəddir. Bu müqavilə yalnız qeydə alınmış əmtəə nişanına aiddir vəqeydiyyatda göstərilən əmtəələr və xidmətlər barəsində qüvvədə olur.

Lisenziya müqaviləsinin qeydiyyatı barədə ərizə və sənədlər müvafiq icra hakimiyyəti orqanına təqdim edilir. Lisenziyanın qeydiyyatı üçün verilən sənədlərə baxılarkən, ərizədə və ya hər hansı materialda göstərilənlərin təsdiqi üçün əlavə sənəd tələb oluna bilər. Ərizədə aşağıdakılar öz əksini tapmalıdır: lisenziyanın növü (müstəsna, qeyri-müstəsna və ya yeganə); lisenziyanın qüvvədə olma müddəti; lisenziyanın istifadə olunduğu ərazi. Lisenziya müqavilələri müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilən "Müqavilələrin qeydiyyatı Qaydaları"na uyğun həyata keçirilir.[50]

Lisenziya müqaviləsinə görə lisenziatın əmtəəsinin və ya xidmətinin keyfiyyəti lisenziarınkindən aşağı olmamalı və lisenziar bu şərtin yerinə yetirilməsinə nəzarət etməlidir.

Lisenziya müqaviləsinə əmtəənin və ya xidmətin keyfiyyəti barədə sənəd əlavə edilir.

*Qeydə alınmış lisenziya müqaviləsində dəyişikliklər tərəflərin razılığı ilə edilir.*[51]

Qeydə alınmış lisenziya müqaviləsi *müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada* ləğv oluna bilər.[52]

Əmtəə nişanına dair lisenziya müqaviləsinin məcburi bağlanmasına yol verilmir.

Coğrafi göstəricidən istifadə hüququ olan şəxs bu hüququn verilməsinə və ondan istifadəyə dair lisenziya müqaviləsi bağlaya bilməz.

Qeydiyyata alınmış əmtəə nişanına dair müstəsna hüquqlar müqavilə əsasında başqa şəxsə girov kimi verilə bilər.

Girov müqaviləsi dövlət rüsumu ödəmək şərti ilə müvafiq icra hakimiyyəti orqanında qeydiyyata alınır. "Girov müqaviləsinin qeydiyyatı Qaydaları" müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.[53]

I V  f ə s i l

## ƏMTƏƏ NİŞANLARININ VƏ COĞRAFİ GÖSTƏRİCİLƏRİN HÜQUQİ MÜHAFİZƏSİNİN XİTAMI

**M a d d ə 2 9 . Əmtəə nişanının və coğrafi göstəricinin qeydiyyatının etibarsız sayılması**

Əmtəə nişanı ~~və coğrafi göstərici~~ bu Qanunun 1-ci maddəsində verilmiş "əmtəə nişanı anlayışına uyğun gəlmirsə və ya 5-ci maddənin tələbləri pozulmaqla qeydə alınmışsa, qeydiyyatın qüvvədə olduğu müddət ərzində, 6-cı maddəsinin birinci və ikinci hissələrində nəzərdə tutulmuş əsaslara görə isə qeydiyyata dair məlumatın rəsmi bülletendə dərc edildiyi tarixdən 5 il ərzində tamamilə və ya qismən etibarsız sayıla bilər.[54]

~~Maraqlı şəxs göstərilən müddətlərdə Apellyasiya komissiyasına qeydiyyata qarşı əsaslandırılmış etiraz təqdim edə bilər. Etiraza onun daxil olduğu tarixdən 2 ay ərzində baxılmalıdır. Etiraz vermiş şəxsin, habelə qeydə alınmış nişan sahibinin Apellyasiya komissiyasında etiraza baxılmasında iştirak etmək hüququ vardır.~~

~~Apellyasiya komissiyasının qərarından 3 ay ərzində məhkəmə qaydasında şikayət verilə bilər.~~

Əmtəə nişanının qeydiyyatı aşağıdakı hallarda *etibarsız hesab edilir*:[55]

əmtəə nişanı qüvvədə olduğu müddətdə, müəyyən növ mallarda ümumi şəkildə istifadə olunan nişanlara çevrildikdə;

əmtəə nişanı qüvvədə olduğu müddətdə tam və ya qismən, "Sənaye mülkiyyətinin mühafizəsi üzrə Paris Konvensiyası"nın iştirakçısı olan dövlətlərin hər hansı birində, əmtəə nişanının sahibi ilə bilavasitə və ya dolayı yolla əlaqəsi olan şəxsin, nümayəndənin, agentin adına, Konvensiyanın 6 septies maddəsinin tələbləri pozulmaqla verildikdə.

Əmtəə nişanı və ya onun əsas hissəsi geniş tanınmış əmtəə nişanına aid olan əmtəələr və ya xidmətlərlə qarışdırılacaq dərəcədə eyni və ya oxşar olan, başqa şəxsin adına qeydiyyata alınmış geniş tanınmış nişanın oxşatması, tərcüməsi və ya transliterasiyasıdırsa, bu cür əmtəə nişanının qeydiyyatının ləğvinə dair tələb, bu əmtəə nişanı barədə məlumatın dərc olunduğu tarixdən etibarən, qüvvədə olduğu müddət ərzində verilə bilər.

Coğrafi göstəricinin qeydiyyatı aşağıdakı hallarda etibarsız hesab edilir:

coğrafi məkanda təbiət amilləri dəyişdiyi halda;

coğrafi göstəricidən istifadə edildiyi əmtəə ona aid olan xüsusi keyfiyyətlərini itirdiyi halda.

Azərbaycan Respublikasında geniş tanınmış əmtəə nişanına hüquq bu Qanunun 7-ci maddəsinin tələbləri pozulmaqla verilmişsə, habelə həmin maddədə müəyyən edilən əlamətlərə görə geniş tanınmış əmtəə nişanı qüvvəsini itirmişsə, qüvvədə olduğu müddət ərzində ona qarşı verilmiş etiraz əsasında tamamilə və ya qismən geniş tanınmış kimi etibarsız hesab edilə bilər.

Bu maddənin müddəalarına əsaslanaraq istənilən şəxs dövlət rüsumu ödəmək şərti ilə, əmtəə nişanının və ya coğrafi göstəricinin qeydiyyatının və ya coğrafi göstəricinin istifadəsinə dair şəhadətnamənin ləğv edilməsinə dair tələblə və ya geniş tanınmış əmtəə nişanına qarşı verilmiş etirazla bağlı Apellyasiya şurasına müraciət edə bilər. Müraciətə 3 ay ərzində baxılmalıdır. Müraciət edən şəxsin, habelə qeydə alınmış nişan sahibinin Apellyasiya şurasında işə baxılmasında iştirak etmək hüququ vardır. Apellyasiya şurasının qərarından 3 ay ərzində məhkəmə qaydasında şikayət verilə bilər.[56]

**M a d d ə 3 0 . Qeydə alınmış əmtəə nişanından ~~və coğrafi göstəricidən~~ istifadə edilmədikdə qeydiyyata xitam verilməsi**[57]

Əmtəə nişanının ~~və coğrafi göstəricinin~~ qeydə alındığı tarixdən fasiləsiz olaraq 5 il və ya istənilən şəxsin ondan istifadə olunmaması barədə verdiyi ərizənin daxil olduğu tarixə qədər 5

il ərzində istifadəolunmadıqda müvafiq icra hakimiyyəti orqanının Apellyasiya şurası qeydiyyata xitam verə bilər.[58]

Apellyasiya şurasında ərizəyə dövlət rüsumunun ödənilməsi şərti ilə 3 ay ərzində baxılır. Ərizə barədə 2 həftə ərzində nişan sahibinə bildiriş göndərilir.[59]

İstənilən şəxsin, əmtəə nişanı sahibinin, onun lisenziatının, ~~coğrafi göstəriciyə dair şəhadətnamə sahibinin~~ ərizəyə baxılmasında iştirak etmək hüququ vardır.[60]

Qeydə alınmış əmtəə nişanından ~~və coğrafi göstəricidən~~ istifadə olunmaması ilə əlaqədar qeydiyyata xitam verilməsi məsələsinə baxılarkən nişan sahibinin həmin nişandan özündən asılı olmayan səbəblərə görə istifadə etmədiyinə dair gətirdiyi dəlillər, o cümlədən istifadəsinə təsir edən idxal məhdudiyyətləri və ya ona aid olan əmtəə və xidmətlər üzrə hökumətin digər tələbləri nəzərə alına bilər.

Əmtəə nişanından istifadə halının sübutu əmtəə nişanının sahibinin üzərinə düşür. [61]

Apellyasiya şurasının qərarından 3 ay ərzində məhkəmə qaydasında şikayət verilə bilər.

Vahid keyfiyyət və başqa xüsusiyyətləri olmayan əmtəələrdə və göstərilən xidmətlərdə kollektiv nişandan istifadə edildikdə maraqlı hüquqi və ya fiziki şəxsin ərizəsinə əsasən onun qeydiyyatına məhkəməqaydasında vaxtından əvvəl tamamilə və ya qismən xitam verilə bilər.

Qeydiyyata xitam verilməsi barədə məlumat rəsmi bülletendə dərc edilir.

Maddə 31. **Əmtəə nişanlarının və coğrafi göstəricilərin qeydiyyatının ləğvi**

Müvafiq icra hakimiyyəti orqanı aşağıdakı hallarda əmtəə nişanının və coğrafi göstəricinin qeydiyyatına xitam verir:

bu Qanunun 21-ci maddəsində nəzərdə tutulmuş müddətin qurtarması ilə əlaqədar;

şəhadətnamə sahibi qeydiyyatdan imtina etdikdə;

bu Qanunun 29-cu maddəsinə uyğun olaraq qeydiyyat etibarsız sayıldıqda;

bu Qanunun 30-cu maddəsinə uyğun qəbul olunmuş qərara əsasən;

coğrafi göstərici qüvvədən düşdükdə;[62]

hüquqi şəxs ləğv edildikdə və ya fiziki şəxs sahibkarlıq fəaliyyətini dayandırdıqda;[63]

coğrafi göstəricinin mənşə ölkəsində hüquqi mühafizəsinə xitam verildikdə.

~~Mənşəyi göstərilən ərazidən olmayan əmtəələrə dair coğrafi göstəricidən istifadə edilməsi istehlakçıları həqiqi mənşə yeri barəsində yanılda bilərsə, onun qeydiyyatından imtina olunur və ya qeydiyyatıləğv edilir.~~[64]

Əmtəə nişanının qeydiyyatı qüvvədə olduğu müddətdə onun sahibinin qeydiyyatla bağlı hərəkətləri *"Haqsız rəqabət haqqında" Azərbaycan Respublikası Qanunu ilə* müəyyən edilmiş qaydada haqsız rəqabət hesab edildikdə, həmin əmtəə nişanının qeydiyyatına tamamilə və ya qismən xitam verilə bilər.[65]

İstənilən şəxs dövlət rüsumunu ödəmək şərti ilə bu maddənin 1-ci hissəsində göstərilən səbəblərə görə əmtəə nişanının, geniş tanınmış əmtəə nişanının, coğrafi göstəricinin qeydiyyatına və coğrafi göstəricinin istifadəsinə dair şəhadətnamənin qüvvəsinə xitam verilməsi barədə Apellyasiya şurasına müraciət edə bilər. Apellyasiya şurasında baxılan etirazın müddəti onu vermiş şəxsin, habelə əmtəə nişanının, geniş tanınmış əmtəə nişanının, coğrafi göstəricinin istifadəsinə dair şəhadətnamənin sahibinin əsaslandırılmış ərizəsi əsasında, əlavə dövlət rüsumu ödənilməsi şərti ilə etirazın müəyyən edilmiş baxılma müddətinin bitdiyi gündən altı aydan çox olmayan müddətə uzadıla bilər. [66]

Apellyasiya şurasının qərarından 3 ay ərzində məhkəmə qaydasında şikayət verilə bilər.[67]

Qeydiyyatın ləğvinə dair məlumat rəsmi bülletendə dərc edilir.

V fəsil

## QEYDƏ ALINMIŞ NİŞANLARIN HÜQUQİ MÜHAFİZƏSİ

M a d d ə 3 2 . **Qeydə alınmış əmtəə nişanına və coğrafi göstəriciyə dair hüquqların pozulması**

Bu Qanunun 25-ci və 26-cı maddələrinə uyğun olaraq əmtəə nişanı sahibinin razılığı olmadan ondan istifadə edilməsi qeydə alınmış əmtəə nişanına dair hüquqların pozulması sayılır.

Tərkibində coğrafi göstərici saxlayan şərab və spirtli içkilər üçün əmtəə nişanından nişan sahibinin razılığı olmadan istifadə qeydə alınmış əmtəə nişanına dair hüquqların pozulması sayılır.

Göstərilən mənşəyə dəxli olmayan şərablar və spirtli içkiləri müəyyənləşdirən coğrafi göstəricidən ibarət əmtəə nişanının qeydə alınmasından maraqlı tərəfin tələbi ilə imtina edilir və ya qeydiyyat etibarsız sayılır.

Coğrafi göstərici məlum olarsa, mənşə adından tərcümə edilərsə, "cins", "tip", "təqlid" və başqa ifadələrlə birgə işlənərsə, eləcə də şəhadətnaməsi olmayan şəxslər tərəfindən xüsusiyyətləri istehlakçılarıyanıldа bilən bircinsli əmtəələr (o cümlədən, şərab və spirtli içkilər) barəsində eyni və ya oxşar nişandan istifadə edilərsə, bu hal qeydə alınmış coğrafi göstəriciyə dair hüquqların pozulması sayılır.

Paris Konvensiyasının 10bis maddəsinə uyğun olaraq haqsız rəqabət sayılan hər bir istifadə hərəkəti.[68]

Aşağıdakı hallar internet şəbəkəsində, xüsusilə domen adlarda və ya ünvanlamanın başqa üsullarında əmtəə nişanının və ya firma adının sahibinin hüquqlarının pozulması hesab edilir:

domen adları eyni mallar və ya xidmətlərə görə firma adları və əmtəə nişanları ilə eynilik təşkil etdikdə;

domen adları kommersiya məqsədləri üçün istifadə edildikdə.

Domen adı və ya onun əsas hissəsi geniş tanınmış əmtəə nişanının təkrarlandığı, ona oxşadıldığı, tərcümə və ya transliterasiya edildiyi hallarda qeydiyyata alınmışsa və ya internet şəbəkəsində haqsız istifadə edilərsə, (xüsusən domen adlarında və ya ünvanlamanın başqa üsullarında), geniş tanınmış əmtəə nişanının sahibinin hüquqlarının pozulması hesab edilir. Geniş tanınmış əmtəə nişanının sahibi məhkəmə qaydasında tələb edə bilər ki, qarşıdurma yaradan domen adının qeydiyyatını aparan orqan onun qeydiyyatına xitam versin və ya həmin adı geniş tanınmış əmtəə nişanının sahibinə qaytarsın.

Azərbaycan Respublikasında qeydiyyata alınan geniş tanınmış əmtəə nişanının başqa şəxs tərəfindən bütün növ əmtəələrdə və xidmətlərdə istifadə edilməsi onun sahibinə ziyan vurduqda bu xal geniş tanınmış əmtəə nişan sahibinin hüquqlarının pozulması hesab edilir.[69]

Mühafizə edilən əmtəə nişanı və coğrafi göstəricinin istifadəsi ilə bağlı aşağıdakılar qadağan olunur:[70]

əmtəənin, göstərilən xidmətin və ya sahibkarlıq fəaliyyətinin başqası ilə qarışdırılmasına səbəb olan hərəkətlər;

kommersiya fəaliyyəti həyata keçirilərkən əmtəəni, göstərilən xidməti və ya sahibkarlıq fəaliyyətini gözdən salan yanlış rəylər;

kommersiya fəaliyyəti həyata keçirilərkən istifadəsi əmtəənin xüsusiyyəti, keyfiyyəti, yararlığı barədə ictimaiyyəti çaşdıra bilən göstəricilər.

M a d d ə 3 3 . **Mübahisələrə baxılması**

Bu Qanunun icrası ilə əlaqədar aşağıdakı mübahisələrə Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi və Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsi ilə müəyyən edilmiş qaydada qaydada məhkəmədə baxılır:[71]

vahid keyfiyyət göstəricilərinə və ya digər vahid xüsusiyyətlərə malik olmayan, əmtəələrdə istifadə olunan kollektiv nişanın hüquqi mühafizəsinin vaxtından əvvəl dayandırılması;[72]

əmtəə nişanına dair müstəsna hüququn pozulması;

~~vaxtından əvvəl əmtəə nişanı və coğrafi göstəricinin qeydiyyatının qüvvəsinə xitam verilməsi və ya onun etibarsız sayılması;~~ [73]

lisenziya müqaviləsinin və hüquqların verilməsinə dair müqavilənin bağlanması və icrası;

coğrafi göstəricidən qanunsuz istifadə.

Mübahisələrə məhkəmədə baxılarkən əmtəələrin istehsalı və ya xidmətlərin göstərilməsi ilə bağlı əmtəə nişanı sahibinin kommersiya sirlərinin saxlanılmasına riayət olunur.

M a d d ə 3 4 . **Hüquqların pozulmasına görə sanksiyalar**

Əmtəə nişanından və coğrafi göstəricidən qanunsuz olaraq qismən və ya tamamilə istifadə edən hüquq sahibinin tələbi ilə istifadəyə son qoymalı və nişan sahibinə dəyən ziyanı ödəməlidir.[74]

Əmtəə nişanları, coğrafi göstəricilər və ya onlara qarışdırılacaq dərəcədə oxşar olan nişanlarla qeyri-qanuni təchiz olunan mallar kontrafakt hesab edilir.[75]

Mülki mühakimə icraatı qaydasında mübahisələrə baxarkən, məhkəmə üçüncü tərəflərin qanuni hüquqlarına xələl gətirməmək şərtilə, hüquq pozuntusunun təhlükəlilik dərəcəsindən və miqyasından asılı olaraq kompensasiya ödənilmədən aşağıda göstərilən malların ticarət dövriyyəsindən çıxarılmasına və/və ya sonradan məhvinə dair qərar qəbul edə bilər:

a) hüquq pozuntusunun obyekti olan malların;

b) gələcəkdə baş verə biləcək hüquq pozuntularının qarşısının alınması məqsədilə bilavasitə kontrafakt malların istehsalında istifadə olunan material və avadanlıqların.

Hüquq sahibi kontrafakt malları (o cümlədən etiketləri və ya nişanları) istehsal edən və ya bu mallardan (o cümlədən etiketdən və ya nişandan) istifadə etdiyini bilən və ya bilməli olan şəxs tərəfindən vurulmuş ziyanın və çəkdiyi xərclərin əvəzinə min manatdan əlli min manatadək məbləğdə kompensasiya ödənilməsini məhkəmə qaydasında tələb edə bilər.

Əmtəə nişanı və coğrafi göstərici ilə qanunsuz təchiz edilmiş mallar Azərbaycan Respublikasına gətirilərkən (tranzit mallar və ya hüquq sahibinin və ya onun razılığı ilə digər dövlətin ərazisində sərbəst satışdan əldə olunan mallar istisna olmaqla) hüquq sahibinin tələbi ilə məhkəmə qərarına əsasən həmin malların gömrük orqanları tərəfindən sərbəst dövriyyəyə buraxılışı 10 iş günü müddətinə dayandırıla bilər.

İxrac olunması nəzərdə tutulan kontrafakt malların gömrük ərazisindən buraxılması gömrük orqanlarının qərarı ilə dayandırıla bilər.[76]

Hüquq sahibinin nişanı ilə qanunsuz təchiz edilmiş əmtəələr Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilərkən onların saxlanması üçün gömrük orqanlarına əsaslandırılmış xahişlə müraciət etmək, əmtəələrin miqdarı və ixracatçı, idxalatçı, daşıyıcı barədə məlumat almaq hüququ vardır. [77]

Malların sərbəst dövriyyəyə buraxılmaması barədə ərizəçiyə (hüquq sahibinə) bildiriş verildiyi gündən 10 iş günü müddətində kontrafakt olduğu ehtimal edilən idxal mallarının üzərinə iddianın təmin edilməsi qaydasında məhkəmə tərəfindən qoyulmuş həbs qərarından sonra cavabdeh olmayan şəxsin iddiasına əsasən məhkəmədə işə mahiyyəti üzrə baxılması barədə ağlabatan müddətdə məlumat gömrük orqanlarına daxil olmadıqda, dayandırma 10 iş günündən çox olmamaq şərti ilə uzadıla bilər.[78]

Əmtəə gömrük sərhəddində qanunsuz saxlanılarsa, onun sahibinə dəyən ziyan təqsirkar tərəfindən ödənilir.

~~Əmtəələrin keyfiyyəti orijinaldan fərqlənərsə, əmtəə nişanlarından və coğrafi göstəricidən qanunsuz istifadə edən şəxs Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyır.~~[79]

V I f ə s i l

## YEKUN MÜDDƏALARI

M a d d ə  3 5 . **Dövlət rüsumunun ödənilməsi**

*Əmtəə nişanının və coğrafi göstəricinin qeydə alınması, müvafiq şəhadətnamələrin verilməsi və onlarla bağlı digər hüquqi hərəkətlər üçün "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət rüsumu ödənilir.*[80]

*35-1.* ***Əmtəə nişanları və coğrafi göstəricilər ilə bağlı iddia sənədinin qəbulu və onların ekspertizasının təşkili***[81]

*Əmtəə nişanları və coğrafi göstəricilər ilə bağlı iddia sənədinin qəbulunu (iddia sənədinin ilkin ekspertizası və ekspertizası daxil olmaqla), əmtəə nişanına dair ilkinliyin müəyyən edilməsini, iddia sənədinin materiallarının tamamlanmasına, dəqiqləşdirilməsinə və ona düzəliş edilməsinə və iddia sənədlərinin (o cümlədən ilkinlik üzrə sənədlərin) təqdim edilmə müddətinin uzadılmasına dair vəsatətlərə baxılmasını müvafiq icra hakimiyyəti orqanı tərəfindən yaradılmış ixtisaslaşmış hüquqi şəxs həyata keçirir.*

M a d d ə  3 6 . **Xarici hüquqi və fiziki şəxslərin hüquqları**

Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrdə başqa hal nəzərdə tutulmayıbsa, xarici hüquqi və fiziki şəxslər əmtəə nişanlarına və coğrafi göstəricilərə dair Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri ilə bərabər hüquqa malikdirlər.

M a d d ə  3 7 . **Qanunun pozulmasına görə məsuliyyət**

*Bu Qanunu pozan hüquqi, fiziki və vəzifəli şəxslər Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə və Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə uyğun məsuliyyət daşıyırlar.*[82]

**Azərbaycan Respublikasının Prezidenti   HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 12 iyun 1998-ci il
№ 504-IQ

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 30 aprel 2004-cü il tarixli 643-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 1, maddə 10**)
2. 3 aprel 2009-cu il tarixli **783-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 296)**
3. 1 fevral 2010-cu il tarixli **951-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 19 mart 2010-cu il, № 62, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 03, maddə 171)**
4. 29 may 2012-ci il tarixli **373-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti 10 iyul 2012-ci il, № 150, "Azərbaycan" qəzeti 12 iyul 2012-ci il, № 152, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, № 07, maddə 645**)

5. 22 noyabr 2013-cü il tarixli **823-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 29 dekabr 2013-cü il, № 288, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 12, maddə 1482)**

## QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 3 aprel 2009-cu il tarixli **783-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 296)** ilə 1-ci maddənin üçüncü abzası yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~**coğrafi göstərici** – əmtəənin mənşəcə dövlətin və ya bölgənin ərazisi ilə, yaxud bu ərazidəki yerlə (coğrafi obyektlə) bağlı olduğunu bildirən, onun xüsusi keyfiyyətini, şöhrətini və başqa xüsusiyyətlərini əks etdirən göstəricidir;~~

[2] 3 aprel 2009-cu il tarixli **783-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 296)** ilə 5-ci maddənin ikinci hissə çıxarılmışdır.

[3] 3 aprel 2009-cu il tarixli **783-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 296)** ilə 5-ci maddənin üçüncü hissədə "**ç**" işarəsi "**d**" işarəsi ilə əvəz edilmişdir.

[4] 3 aprel 2009-cu il tarixli **783-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 296)** ilə 5-ci maddənin dördüncü hissədə "**f**" işarəsi "**g**" işarəsi ilə əvəz edilmişdir.

[5] 3 aprel 2009-cu il tarixli **783-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 296)** ilə 6-cı maddənin birinci hissənin "ç" bəndi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~ç) eyni və ya oxşar əmtəələr və ya xidmətlər üçün əmtəə nişanına dair iddia sənədinin daxil olduğu tarixdən əvvəl Azərbaycan Respublikasında firma adlarından istifadə hüququ əldə etmiş başqa şəxslərə məxsus firma adlarıbarəsində nişanlar (rəsmi bülletendə dərc olunmaq şərti ilə);~~

[6] 3 aprel 2009-cu il tarixli **783-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 296)** ilə 6-cı maddənin dördüncü hissəyə "ç" bəndi əlavə edilmişdir.

[7] 3 aprel 2009-cu il tarixli **783-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 296)** ilə 7-ci maddənin üçüncü hissəsi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Azərbaycan Respublikası ərazisində nişanın istifadə edildiyi əmtəələrin və xidmətlərin istifadəçiləri arasında onun tanınma dərəcəsi;~~

[8] 3 aprel 2009-cu il tarixli **783-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 296)** ilə 8-ci maddənin birinci hissə yeni redaksiyada verilmişdir.

Əvvəlki ra=edaksiyada deyilirdi:

~~Bu Qanunun 1-ci maddəsində verilmiş "coğrafi göstərici" anlayışına uyğun gələn nişanlar coğrafi göstərici kimi qeydə alınır.~~

[9] 3 aprel 2009-cu il tarixli **783-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 296)** ilə 8-ci maddənin ikinci hissədə "**edilir**" sözü "**edilə bilər**" sözləri ilə əvəz edilmişdir.

[10] 3 aprel 2009-cu il tarixli **783-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 296)** ilə 8-ci maddəyə altıncı-doqquzuncu hissələr əlavə edilmişdir.

[11] 3 aprel 2009-cu il tarixli **783-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 296)** ilə 8-ci maddənin altıncı hissə çıxarılmışdır.

[12] 3 aprel 2009-cu il tarixli **783-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 296)** ilə 8-ci maddənin yeddinci hissədən "**Azərbaycan Respublikasında**" sözləri çıxarılmışdır, "**nişan**" sözü "**işarə**" sözü ilə əvəz edilmişdir.

[13] 3 aprel 2009-cu il tarixli **783-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 296)** ilə 8-ci maddənin yeddinci və səkkizinci hissələr müvafiq olaraq onuncu və on birinci hissələr hesab edilsin və on ikinci hissə əlavə edilmişdir.

[14] 3 aprel 2009-cu il tarixli **783-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 296)** ilə 9-cu maddənin üçüncü hissədə "**orqanına iddia sənədini yalnız patent müvəkkilləri vasitəsi ilə verirlər**" sözləri "**orqanı ilə hüquqi əhəmiyyətli işləri yalnız patent müvəkkilləri vasitəsilə aparırlar**" sözləri ilə əvəz edilmişdir.

29 may 2012-ci il tarixli **373-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti 10 iyul 2012-ci il, № 150, "Azərbaycan" qəzeti 12 iyul 2012-ci il, № 152, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, № 07, maddə 645**) ilə 9-cu maddənin üçüncü hissəsində "**müvafiq icra hakimiyyəti orqanı ilə**" sözlərindən sonra "**əmtəə nişanları və coğrafi göstəricilərlə bağlı**" sözləri əlavə edilmişdir.

[15] 3 aprel 2009-cu il tarixli **783-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 296)** ilə 9-cu maddənin beşinci hissənin üçüncü abzasında "**və**" sözündən sonra "**ya**" sözü əlavə edilmişdir.

[16] 3 aprel 2009-cu il tarixli **783-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 296)** ilə 9-cu maddənin altıncı hissənin dördüncü abzasında "**şəkli**" sözü "**işarəsi**" sözü ilə əvəz edilmişdir.

[17] 3 aprel 2009-cu il tarixli **783-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 296)** ilə 9-cu maddənin altıncı hissənin yeddinci abzasında "**əmtəənin**" sözündən sonra "**və ya xidmətin**" sözləri əlavə edilmişdir.

[18] 29 may 2012-ci il tarixli **373-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti 10 iyul 2012-ci il, № 150, "Azərbaycan" qəzeti 12 iyul 2012-ci il, № 152, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, № 07, maddə 645**) ilə 9-cu maddənin yeddinci hissənin ikinci abzasında "**dövlət rüsumunun**" sözləri "**müəyyən edilmiş haqqın**" sözləri ilə əvəz edilmişdir.

22 noyabr 2013-cü il tarixli **823-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 29 dekabr 2013-cü il, № 288, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 12, maddə 1482)** ilə 9-cu maddənin yeddinci hissəninin birinci bəndi ləğv edilmişdir və 2-ci-6-cı bəndlər müvafiq olaraq 1-ci-5-ci bəndlər hesab edilmişdir.

[19] 3 aprel 2009-cu il tarixli **783-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 296)** ilə 9-cu maddənin yeddinci hissənin dördüncü abzasında "**xidmətlərin siyahısı,**" sözlərindən sonra "**onların**" sözü əlavə edilmişdir.

[20] 3 aprel 2009-cu il tarixli **783-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 296)** ilə 9-cu maddənin yeddinci hissənin yeddinci abzasında "**ölkəsində**" sözündən sonra "**xarici**" sözü əlavə edilmişdir.

[21] 29 may 2012-ci il tarixli **373-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti 10 iyul 2012-ci il, № 150, "Azərbaycan" qəzeti 12 iyul 2012-ci il, № 152, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, № 07, maddə 645**) ilə 9-cu maddənin on ikinci hissənin ikinci cümləsində "**əlavə dövlət rüsumu**" sözləri "**Müəyyən edilmiş haqq**" sözləri ilə əvəz edilmişdir.

22 noyabr 2013-cü il tarixli **823-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 29 dekabr 2013-cü il, № 288, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 12, maddə 1482)** ilə on ikinci hissənin ikinci cümləsində "**Müəyyən edilmiş haqq ödənilməklə**" sözləri "**İddiaçının vəsatəti əsasında**" sözləri ilə əvəz edilmişdir.

[22] 3 aprel 2009-cu il tarixli **783-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 296)** ilə 10-cu maddənin ikinci hissəyə üçüncü və dördüncü cümlələr əlavə edilmişdir.

1 fevral 2010-cu il tarixli **951-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 19 mart 2010-cu il, № 62, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 03, maddə 171) ilə** 10-cu maddəsinin ikinci hissəsinin dördüncü cümləsində "**bayram**" sözü "**istirahət, səsvermə, iş günü hesab edilməyən bayram günlərinə və ümumxalq hüzn**" sözləri ilə əvəz edilmişdir.

[23] 3 aprel 2009-cu il tarixli **783-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 296)** ilə 10-cu maddəyə altıncı hissə əlavə edilmişdir.

[24] 29 may 2012-ci il tarixli **373-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti 10 iyul 2012-ci il, № 150, "Azərbaycan" qəzeti 12 iyul 2012-ci il, № 152, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, № 07, maddə 645**) ilə 11-ci maddənin ikinci və altıncı hissələrində "**dövlət rüsumu**" sözləri "**müəyyən edilmiş haqqı**" sözləri ilə əvəz edilmişdir.

22 noyabr 2013-cü il tarixli **823-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 29 dekabr 2013-cü il, № 288, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 12, maddə 1482)** ilə 11-ci maddənin ikinci hissəsində "**müəyyənləşdirilmiş müəyyən edilmiş haqqı ödəyərək**" sözləri çıxarılmışdır.

[25] 22 noyabr 2013-cü il tarixli **823-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 29 dekabr 2013-cü il, № 288, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 12, maddə 1482)** ilə 11-ci maddənin altıncı hissəsinin ikinci cümləsi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Bu müddət iddiaçının verildiyi vəsatətə əsasən əlavə müəyyən edilmiş haqqı ödəmək şərti ilə 2 ay uzadıla bilər.~~

[26] 3 aprel 2009-cu il tarixli **783-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 296)** ilə 13-cü maddənin üçüncü hissəsində "**İddiaçının Konvensiya və ya sərgi ilkinliyini tələb etdiyi**" sözləri "**İddiaçı Konvensiya və ya sərgi ilkinliyini tələb etdikdə**" sözləri ilə və "**hallarda**" sözü "**halda,**" sözü ilə əvəz edilmişdir.

[27] 3 aprel 2009-cu il tarixli **783-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının**

**Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 296)** ilə 14-cü maddənin ikinci hissində "**uyğun**" sözündən sonra "**2 ay ərzində**" sözləri əlavə edilmişdir.

[28] 3 aprel 2009-cu il tarixli **783-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 296)** ilə 14-cü maddəyə beşinci hissə əlavə edilmişdir, beşinci-yeddinci hissələr müvafiq olaraq altıncı-səkkizinci hissələr hesab edilmişdir.

[29] 3 aprel 2009-cu il tarixli **783-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 296)** ilə 14-cü maddənin beşinci hissə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Əmtəə nişanının qeydə alınması barədə qərara bu Qanunun 10-cu maddəsinə uyğun yenidən baxıla bilər.~~

[30] 30 aprel 2004-cü il tarixli 643-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 1, maddə 10**) ilə 14-cü maddənin altıncı hissəsi yeni redaksiyada verilmişdir. Əvvəlki redaksiyada deyilirdi:

~~İddiaçı əmtəə nişanının və ya coğrafi göstəricinin qeydə alınması, onlara dair məlumatın dərci və şəhadətnamənin verilməsi barədə bildiriş aldığı gündən 2 ay ərzində dövlət rüsumu ödəməlidir.~~

3 aprel 2009-cu il tarixli **783-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 296)** ilə 14-cü maddənin altıncı hissədə "**iddiaçı**" sözündən sonra "**2 ay ərzində**" sözləri əlavə edilmişdir və həmin hissəyə ikinci və üçüncü cümlələr əlavə edilmişdir.

29 may 2012-ci il tarixli **373-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti 10 iyul 2012-ci il, № 150, "Azərbaycan" qəzeti 12 iyul 2012-ci il, № 152, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, № 07, maddə 645**) ilə 14-cü maddənin yeddinci hissəsində "**2 ay ərzində**" sözləri "**4 ay ərzində**" sözləri ilə əvəz edilmişdir.

[31] 29 may 2012-ci il tarixli **373-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti 10 iyul 2012-ci il, № 150, "Azərbaycan" qəzeti 12 iyul 2012-ci il, № 152, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, № 07, maddə 645**) ilə 14-cü maddənin səkkizinci hissəsində "**müəyyənləşdirilmiş dövlət rüsumları**" sözləri "**müəyyən edilmiş haqq**" sözləri ilə əvəz edilmişdir.

22 noyabr 2013-cü il tarixli **823-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 29 dekabr 2013-cü il, № 288, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 12, maddə 1482)** ilə 14-cü maddənin səkkizinci hissəsi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Bu Qanunun 9-cu maddəsinə uyğun verilən iddia sənədinin ekspertizası iddiaçının vəsatəti əsasında və müəyyən edilmiş haqq ödənilməklə 1 ay ərzində keçirilə bilər.~~

[32] 3 aprel 2009-cu il tarixli **783-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 296)** ilə 15-17-ci və 30-cu maddələrdə ismin müvafiq hallarında “**Apellyasiya komissiyası**” sözləri ismin müvafiq hallarında “**Apellyasiya şurası**” sözləri ilə əvəz edilmişdir.

[33] 3 aprel 2009-cu il tarixli **783-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 296)** ilə 15-ci maddənin ikinci hissində “**2**” rəqəmi “**3**” rəqəmi ilə əvəz edilmişdir.

[34] 3 aprel 2009-cu il tarixli **783-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 296)** ilə 15-ci maddəyə üçüncü hissə əlavə edilmişdir, üçüncü və dördüncü hissələr müvafiq olaraq dördüncü və beşinci hissələr hesab edilmişdir.

[35] 3 aprel 2009-cu il tarixli **783-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 296)** ilə 16-cı maddədə “**əsasən**” sözündən sonra “**və əlavə dövlət rüsumu ödəmək şərti ilə**” sözləri, “**orqanı tərəfindən**” sözlərindən sonra isə “**əlavə olaraq**” sözləri əlavə edilmişdir.

[36] 22 noyabr 2013-cü il tarixli **823-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Respublika” qəzeti, 29 dekabr 2013-cü il, № 288, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 12, maddə 1482)** ilə 17-ci maddənin dördüncü hissəsində “**verə bilər**” sözləri “**verir**” sözü ilə əvəz edilmişdir.

[37] 3 aprel 2009-cu il tarixli **783-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 296)** ilə 18-ci maddənin ikinci abzasında “**əmtəənin**” sözündən sonra “**və ya xidmətin**” sözləri əlavə edilmişdir.

[38] 3 aprel 2009-cu il tarixli **783-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 296)** ilə 20-ci maddə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~M a d d ə 2 0 . **Qeydiyyata etiraz**~~

~~Qeydə alınmış əmtəə nişanı, coğrafi göstərici barədə məlumatın dərc edildiyi tarixdən 3 ay ərzində hər bir şəxs rüsum ödəməklə Apellyasiya komissiyasına onun qeydə alınması faktına qarşı əsaslandırılmış etiraz verə bilər.~~

~~Müvafiq icra hakimiyyəti orqanı etirazın daxil olduğu tarixdən 10 gün ərzində əmtəə nişanının sahibinə və ya coğrafi göstəricidən~~

~~istifadə hüququ əldə etmiş şəxsə bu barədə bildiriş göndərir. Bildiriş alındığı tarixdən 1 ay ərzində onlar müvafiq icra hakimiyyəti orqanına əsaslandırılmış cavab verə bilər.~~

~~Bu maddənin 1-ci hissəsində nəzərdə tutulan etiraza Apellyasiya komissiyası 2 ay ərzində baxır. Etiraz əsaslı hesab edildikdə əmtəə nişanının və ya coğrafi göstəricinin qeydiyyatı ləğv edilir və bu barədə məlumat müvafiq icra hakimiyyəti orqanının rəsmi bülletenində dərc olunur.~~

~~Apellyasiya komissiyasının qəbul etdiyi qərara dair bildiriş 10 gün müddətində bütün maraqlı tərəflərə göndərilir.~~

~~Apellyasiya komissiyasının qərarından onun qəbul edildiyi tarixdən 3~~
~~ay ərzində məhkəməyə şikayət vermək olar.~~

[39] 3 aprel 2009-cu il tarixli **783-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 296)** ilə 21-ci maddənin birinci hissənin birinci cümləsindən "**və coğrafi göstəricinin**" sözləri çıxarılmışdır.

3 aprel 2009-cu il tarixli **783-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 296)** ilə 21-ci maddənin birinci hissənin ikinci cümləsində "**ödənilməklə**" sözündən sonra "**məhdudiyyət qoyulmadan**" sözləri əlavə edilmişdir, "**il**" sözündən sonra "**müddətinə**" sözü əlavə edilmişdir.

[40] 3 aprel 2009-cu il tarixli **783-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 296)** ilə 21-ci maddənin ikinci hissədən "**və coğrafi göstərici barədə şəhadətnamənin sahibinə**" sözləri çıxarılmışdır.

[41] 3 aprel 2009-cu il tarixli **783-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 296)** ilə 21-ci maddəyə dördüncü və beşinci hissələr əlavə edilmişdir.

[42] 3 aprel 2009-cu il tarixli **783-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 296)** ilə 25-ci maddənin ikinci və üçüncü hissələr yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Əmtəə nişanı sahibinin icazəsi olmadan onun əmtəə nişanı ilə eyni və ya oxşar olan əmtəə nişanından eyni və ya oxşar olan əmtəə və xidmətlərdə başqa şəxslərin istifadəsi qadağandır. Eyni və ya oxşar olan əmtəə nişanlarıistehlakçılarda yanlış təsəvvür yaratdıqda da bu şərt nəzərə alınır.~~

~~Geniş tanınmış əmtəə nişanına aid olan əmtəə və xidmətlər barəsində yanlış təsəvvür yarada bilən eyni və ya oxşar əmtəə nişanının istifadəsi tanınmış əmtəə nişanı sahibinin maraqlarına toxunmaq hesab olunur.~~

[43] 3 aprel 2009-cu il tarixli **783-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 296)** ilə 25-ci maddəyə dördüncü hissə əlavə

edilmişdir, dördüncü və beşinci hissələr müvafiq olaraq beşinci və altıncı hissələr hesab edilmişdir.

[44] 3 aprel 2009-cu il tarixli **783-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 296)** ilə 25-ci maddənin dördüncü hissədə "**oxşatmadan**" sözündən sonra "**, transliterasiyadan**" sözü əlavə edilmişdir.

[45] 3 aprel 2009-cu il tarixli **783-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 296)** ilə 26-cı maddənin dördüncü hissə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Əmtəə nişanından nişan sahibi ilə bağlanmış müqavilə əsasında başqa şəxslər də istifadə edə bilər.~~

[46] 3 aprel 2009-cu il tarixli **783-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 296)** ilə 26-cı maddənin beşinci hissədə "**yanaşı**" sözündən sonra "**olaraq**" sözü əlavə edilmişdir.

[47] 3 aprel 2009-cu il tarixli **783-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 296)** ilə 26-cı maddəyə yeddinci-doqquzuncu hissələr əlavə edilmişdir.

29 may 2012-ci il tarixli **373-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti 10 iyul 2012-ci il, № 150, "Azərbaycan" qəzeti 12 iyul 2012-ci il, № 152, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, № 07, maddə 645**) ilə 26-cı maddənin doqquzuncu hissəsində "**əmtəə nişanının**" sözlərindən sonra **"(coğrafi göstəricinin)"** sözləri əlavə edilmişdir.

[48] 3 aprel 2009-cu il tarixli **783-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 296)** ilə 27-ci maddənin mətndə "**xəbərdarlıq**" sözündən sonra "®" işarəsi əlavə edilmişdir.

[49] 3 aprel 2009-cu il tarixli **783-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 296)** ilə 27-ci maddəyə ikinci hissə əlavə edilmişdir.

[50] 3 aprel 2009-cu il tarixli **783-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 296)** ilə 28-ci maddəyə beşinci hissə əlavə edilmişdir.

[51] 22 noyabr 2013-cü il tarixli **823-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 29 dekabr 2013-cü il, № 288, Azərbaycan Respublikasının**

**Qanunvericilik Toplusu, 2013-cü il, № 12, maddə 1482)** ilə 28-ci maddədə səkkizinci hissə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Qeydə alınmış lisenziya müqaviləsində tərəflərin razılığı ilə və dövlət rüsumu ödənilməklə dəyişikliklər edilə bilər.~~

[52] 22 noyabr 2013-cü il tarixli **823-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 29 dekabr 2013-cü il, № 288, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 12, maddə 1482)** ilə 28-ci maddənin doqquzuncu hissəsində "**qanunvericilikdə müəyyənləşdirilmiş qaydada**" sözləri "**müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada**" sözləri ilə əvəz edilmişdir.

[53] 3 aprel 2009-cu il tarixli **783-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 296)** ilə 28-ci maddənin beşinci-onuncu hissələr müvafiq olaraq altıncı-on birinci hissələr hesab edilmişdir və on ikinci və on üçüncü hissələr əlavə edilmişdir.

[54] 3 aprel 2009-cu il tarixli **783-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 296)** ilə 29-cu maddənin birinci hissədən "**və coğrafi göstərici**" sözləri çıxarılmışdır, **"və "coğrafi göstərici" anlayışlarına**" sözləri "**anlayışına**" sözü ilə əvəz edilmişdir.

[55] 22 noyabr 2013-cü il tarixli **823-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 29 dekabr 2013-cü il, № 288, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 12, maddə 1482)** ilə 29-cu maddənin ikinci və dördüncü hissələrində "**etibarsız hesab edilə bilər**" sözləri "**etibarsız hesab edilir**" sözləri ilə əvəz edilmişdir.

[56] 3 aprel 2009-cu il tarixli **783-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 296)** ilə 29-cu maddənin ikinci və üçüncü hissələr çıxarılmışdır və ikinci-altıncı hissələr əlavə edilmişdir.

[57] 3 aprel 2009-cu il tarixli **783-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 296)** ilə 30-cu maddənin adından "**və coğrafi göstəricidən**" sözləri çıxarılmışdır.

[58] 3 aprel 2009-cu il tarixli **783-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 296)** ilə 30-cu maddənin birinci hissədən "**və coğrafi göstəricinin**" sözləri çıxarılmışdır, "**, habelə maraqlı şəxsin onlardan**" sözləri "**və ya istənilən şəxsin ondan**" sözləri ilə əvəz edilmişdir.

[59] 3 aprel 2009-cu il tarixli **783-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının**

**Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 296)** ilə 30-cu maddənin ikinci hissənin birinci cümləsində "**2**" rəqəmi "**3**" rəqəmi ilə əvəz edilmişdir.

[60] 3 aprel 2009-cu il tarixli **783-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 296)** ilə 30-cu maddənin üçüncü hissədə "**Maraqlı**" sözü "**İstənilən**" sözü ilə əvəz edilmişdir, "**coğrafi göstəriciyə dair şəhadətnamə sahibinin**" sözləri çıxarılmışdır.

[61] 3 aprel 2009-cu il tarixli **783-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 296)** ilə 30-cu maddənin dördüncü hissədə "**və coğrafi göstəricidən**" sözləri çıxarılmışdır, "**dəlillər**" sözündən sonra "**, o cümlədən istifadəsinə təsir edən idxal məhdudiyyətləri və ya ona aid olan əmtəə və xidmətlər üzrə hökumətin digər tələbləri**" sözləri və həmin hissəyə ikinci cümlə əlavə edilmişdir.

[62] 3 aprel 2009-cu il tarixli **783-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 296)** ilə 31-ci maddəyə birinci hissəyə yeddinci abzas əlavə edilsin, yeddinci abzas müvafiq olaraq səkkizinci abzas hesab edilmişdir.

[63] 3 aprel 2009-cu il tarixli **783-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 296)** ilə 31-ci maddənin birinci hissənin altıncı abzası yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~əmtəə və göstərilən xidmət coğrafi göstərici barədə xüsusi xassələrini itirdikdə;~~

[64] 3 aprel 2009-cu il tarixli **783-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 296)** ilə 31-ci maddənin ikinci hissə çıxarılmışdır.

[65] 22 noyabr 2013-cü il tarixli **823-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 29 dekabr 2013-cü il, № 288, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 12, maddə 1482)** ilə 31-ci maddənin ikinci hissəsində "**qanunvericiliklə**" sözü "**Haqsız rəqabət haqqında" Azərbaycan Respublikası Qanunu ilə**" sözləri ilə əvəz edilmişdir.

[66] 29 may 2012-ci il tarixli **373-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti 10 iyul 2012-ci il, № 150, "Azərbaycan" qəzeti 12 iyul 2012-ci il, № 152, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, № 07, maddə 645**) ilə 31-ci maddənin üçüncü hissəsinin ikinci cümləsində "**sahibi tərəfindən verilmiş ərizə**" sözləri "**sahibinin əsaslandırılmış ərizəsi**" sözləri ilə əvəz edilmişdir.

[67] 3 aprel 2009-cu il tarixli **783-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 296)** ilə 31-ci maddəyə ikinci-dördüncü hissələr əlavə edilmişdir, üçüncü hissə müvafiq olaraq beşinci hissə hesab edilmişdir.

[68] 3 aprel 2009-cu il tarixli **783-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 296)** ilə 32-ci maddənin beşinci hissəyə beşinci abzas əlavə edilmişdir.

[69] 3 aprel 2009-cu il tarixli **783-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 296)** ilə 32-ci maddənin altıncı-səkkizinci hissələr əlavə edilmişdir.

[70] 3 aprel 2009-cu il tarixli **783-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 296)** ilə 32-ci maddənin beşinci hissənin birinci abzasında "**Qeydə alınmış**" sözləri "**Mühafizə edilən**" sözləri ilə əvəz edilmişdir.

[71] 22 noyabr 2013-cü il tarixli **823-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 29 dekabr 2013-cü il, № 288, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 12, maddə 1482)** ilə 33-cü maddənin birinci hissəsində "**Azərbaycan Respublikasının qanunvericiliyində müəyyənləşdirilmiş**" sözləri "**Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi və Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsi ilə müəyyən edilmiş qaydada**" sözləri ilə əvəz edilmişdir.

[72] 3 aprel 2009-cu il tarixli **783-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 296)** ilə 33-cü maddənin birinci hissənin ikinci abzası yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~əmtəə nişanı və coğrafi göstəriciyə dair qeydiyyat şəhadətnaməsinin verilməsi;~~

[73] 3 aprel 2009-cu il tarixli **783-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 296)** ilə 34-cü maddənin birinci hissənin dördüncü abzası çıxarılmışdır.

[74] 3 aprel 2009-cu il tarixli **783-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 296)** ilə 34-cü maddənin birinci hissədə "**şəxs**" sözündən sonra "**hüquq sahibinin tələbi ilə**" sözləri əlavə edilmişdir.

[75] 3 aprel 2009-cu il tarixli **783-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 296)** ilə 34-cü maddəyə aşağıdakı məzmunda ikinci hissə əlavə edilmişdir, ikinci-səkkizinci hissələr müvafiq olaraq üçüncü-doqquzuncu hissələr hesab edilmişdir.

[76] 3 aprel 2009-cu il tarixli **783-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının**

**Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 296)** ilə 34-cü maddənin ikinci-beşinci hissələr aşağıdakı redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Qeydə alınmış nişandan qanunsuz istifadəyə məhkəmə qaydasında baxılarkən istifadəyə son qoyulması, ziyanın ödənilməsi, istifadə edilən nişanın və onun hazırlanması üçün avadanlığın, eləcə də əmtəələrin (əgər qanunsuz istifadə edilən nişanları qoparmaq mümkün deyilsə) müsadirə olunması və ya məhvi haqqında qərar qəbul edilə bilər.~~

~~Azərbaycan Respublikasında qeydə alınmamış əmtəə nişanı və coğrafi göstərici barəsində xəbərdaredici işarə istehsal edən şəxs Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyır.~~

~~Əmtəə nişanı və coğrafi göstərici ilə qanunsuz təchiz edilmiş əmtəələr Azərbaycan Respublikasına gətirilərkən, tranzit mallar istisna olmaqla, onların üzərinə prokurorun, məhkəmənin, müvafiq icra hakimiyyəti orqanının vəya maraqlı tərəfin tələbi ilə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada həbs qoyulur.~~

~~Əmtəənin mənşəyi və ya sahibkarın şəxsiyyəti barədə yalan göstəricilərdən bilavasitə və ya dolayısı ilə istifadə edildikdə də əmtəənin üzərinə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada həbs qoyulur.~~

[77] 3 aprel 2009-cu il tarixli **783-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 296)** ilə 34-cü maddənin altıncı hissədə “**Əmtəə nişanı sahibinin və ya lisenziyanın**” sözləri “**Hüquq sahibinin**” sözləri ilə, “**göndərənin adı**” sözləri “**ixracatçı, idxalatçı, daşıyıcı**” sözləri ilə əvəz edilmişdir.

[78] 3 aprel 2009-cu il tarixli **783-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 296)** ilə 34-cü maddənin yeddinci hissə aşağıdakı redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Əmtəə nişanının sahibi və ya lisenziat əmtəələrin həbsi haqqında məhkəmə qərarını və ya məhkəmənin başlanması barədə sənəd təqdim etmədikdə onların saxlanması xərclərinin ödənilməsi üçün girov qoymadıqda bu cür əmtəələr yalnız 15 gün müddətində saxlanıla bilər.~~

[79] 3 aprel 2009-cu il tarixli **783-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 296)** ilə 34-cü maddənin doqquzuncu hissə çıxarılmışdır.

[80] 29 may 2012-ci il tarixli **373-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Respublika” qəzeti 10 iyul 2012-ci il, № 150, “Azərbaycan” qəzeti 12 iyul 2012-ci il, № 152, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, № 07, maddə 645**) ilə 35-ci maddədə “**hüquqi hərəkətlər üçün**” sözlərindən sonra “(**müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş haqqın ödənildiyi hallar istisna olmaqla**)” sözləri əlavə edilmişdir.

22 noyabr 2013-cü il tarixli **823-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Respublika” qəzeti, 29 dekabr 2013-cü il, № 288, Azərbaycan Respublikasının**

**Qanunvericilik Toplusu, 2013-cü il, № 12, maddə 1482)** ilə 35-ci maddə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Əmtəə nişanının və coğrafi göstəricinin qeydə alınması, müvafiq şəhadətnamələrin verilməsi və onlarla bağlı digər hüquqi hərəkətlər üçün (müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş haqqın ödənildiyi hallar istisna olmaqla) Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada dövlət rüsumu ödənilir.~~

[81] 22 noyabr 2013-cü il tarixli **823-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 29 dekabr 2013-cü il, № 288, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 12, maddə 1482)** ilə 35-1-ci maddə əlavə edilmişdir.

[82] 22 noyabr 2013-cü il tarixli **823-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 29 dekabr 2013-cü il, № 288, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 12, maddə 1482)** ilə 37-ci maddə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Bu Qanunu pozan hüquqi və fiziki şəxslər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyırlar.~~